

# AHİK-in İcraiyyə Komitəsi
## Azərbaycan xalqını, o cümlədən çoxsaylı həmkarlar ittifaqı üzvlərini 15 İyun- Milli Qurtuluş Günü münasibətilə təbrik edir




# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 10 İYUN 2021-Cİ İL / № 21 (1239)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


# Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu qardaş ölkədə çoxsaylı görüşlər keçirdi



**Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi nümayəndə heyəti Ankaraya səfər edib.**

**AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun dəvəti ilə həyata keçirilən səfər çərçivəsində nümayəndə heyətinin üzvləri iyunun 8-də Ankaradakı Heydər Əliyev Parkına gələrək Ulu Öndərin burada ucalan abidəsi önünə əklil qoyub, tər çiçəklər düzüblər.**

**Ümummilli lider Heydər Əliyevin xatirəsi ehtiramla yad olunub.**

**Sonra işçi qrupun üzvləri - Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyev Türkiyə Böyük Millət Məclisinin Kənd təsərrüfatı, meşə və kənd işləri komissiyasının sədri Yunus Kılıçla görüşüblər.**

**Görüşdə Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi, eləcə də parlamentlərin müvafiq komissiyaları arasındakı əlaqələr yüksək dəyərləndirilib.**

**Yunus Kılıç bildirib ki, Türkiyə parlamentindəki komissiyalar tarixi ənənələrə uyğun olaraq fəaliyyət göstərir.**

**Qırx dörd günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov qeyd edib ki, iki qardaş ölkənin qanunverici orqanları, eləcə də komissiyalar arasındakı münasibətlərin səmərəliliyinin artırılması üçün əlaqələr daha da intensivləşdirilməlidir.**

BAX SƏHİFƏ: 2

## Koronavirus infeksiyasından daha 239 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 239 nəfər müalicə olunaraq sağalıb, 68 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 917 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 327 min 626 nəfər müalicə olunaraq sağalıb, 4948 nəfər vəfat edib. Aktiv xəstə sayı 2343 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 589 min 231 test aparılıb. Bugünkü test sayı isə 8158-dir.**

## Səttar Möhbalıyev:
*"Azərbaycan-Türkiyə münasibətlərinin bu səviyyəyə çatmasında YAP və AKP-nin xidmətləri danılmazdır"*

BAX SƏHİFƏ: 3

## AHİK-in İcraiyyə Komitəsi bəyanat yayıb

BAX SƏHİFƏ: 3

## İlin peşəkar gəncləri
*2020-ci il üzrə "İlin peşəkar gənci" fəxri adına layiq görülmüş gənclərin*
**SİYAHISI**

BAX SƏHİFƏ: 4

## Hərbçi kursantlar "Mübariz" uğrunda yarışdılar

BAX SƏHİFƏ: 8

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

## Beynəlxalq Əmək Konfransının 109-cu sessiyası keçirilir

BAX SƏHİFƏ: 7

## "Minalanmış ərazilər yeni bir terror formasının təzahürüdür"

BAX SƏHİFƏ: 6

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu qardaş ölkədə çoxsaylı görüşlər keçirdi



**Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi nümayəndə heyəti Ankaraya səfər edib.**

**AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun dəvəti ilə həyata keçirilən səfər çərçivəsində nümayəndə heyətinin üzvləri iyunun 8-də Ankaradakı Heydər Əliyev Parkına gələrək Ulu Öndərin burada ucalan abidəsi önünə əklil qoyub, tər çiçəklər düzüblər.**

Ümummilli lider Heydər Əliyevin xatirəsi ehtiramla yad olunub.



Sonra işçi qrupun üzvləri - Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyev Türkiyə Böyük Millət Məclisinin Kənd təsərrüfatı, meşə və kənd işləri komissiyasının sədri Yunus Kılıçla görüşüblər.

**Görüşdə Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi, eləcə də parlamentlərin müvafiq komissiyaları arasındakı əlaqələr yüksək dəyərləndirilib.**

Yunus Kılıç bildirib ki, Türkiyə parlamentindəki komissiyalar tarixi ənənələrə uyğun olaraq fəaliyyət göstərir.

Qırx dörd günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov qeyd edib ki, iki qardaş ölkənin qanunverici orqanları, eləcə də komissiyalar arasındakı münasibətlərin səmərəliliyinin artırılması üçün əlaqələr daha da intensivləşdirilməlidir.



**Çıxışlarda diqqətə çatdırılıb ki, rəşadətli Zəfərdən sonra Azərbaycan ilə Türkiyə arasında, digər sahələrdə olduğu kimi, aqrar sektorda da əməkdaşlığın yeni mərhələsi başlayıb. Azərbaycanın işğaldan azad olunan ərazilərində bərpa və yenidənqurma işləri üçün Türkiyə bütün imkanları ilə qardaş köməyi göstərir.**

Ölkəmizin aqrar siyasətindən, bu sahədə qazanılan nailiyyətlərdən, Qarabağ Zəfəri əsasında yaranmış perspektivlərdən bəhs edən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü Eldar İbrahimov diqqətə çatdırıb ki, işğaldan azad olunan ərazilər bərəkətli, məhsuldar torpaqlardır. Odur ki, bundan sonra Azərbaycan kənd təsərrüfatı və heyvandarlıqda böyük inkişaf əldə edəcək.

**Qrupun üzvü Eldar Quliyev vurğulayıb ki, Türkiyənin də dəstəyi ilə minalardan təmizlənən Azərbaycan əraziləri ən qısa zamanda istifadəyə cəlb olunacaqdır.**

Çıxışlarda vurğulanıb ki, Azərbaycan və Türkiyə aqrar sahədə, kənd təsərrüfatı, meşəçilik, su hövzələrindən səmərəli istifadə məsələlərində də sıx əməkdaşlıq edəcəklər.

Təəssüflə qeyd olunub ki, təcavüzkar Ermənistan 30 illik işğal dövründə nəzarət altında saxladığı Azərbaycan ərazilərində əsl soyqırımı həyata keçirib. O cümlədən torpaq sahələri qanunsuz istismar olunub, meşələr məhv edilib, su mənbələri məqsədyönlü şəkildə çirkləndirilib.

**Növbəti görüş Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti arasında baş tutub.**

Görüşdə Azərbaycan və Türkiyənin parlament dostluq qrupları arasındakı əlaqələr yüksək dəyərləndirilib, gələcək birgə fəaliyyətə dair səmərəli fikir mübadiləsi aparılıb.

Qırx dörd günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər münasibətilə yenidən təbriklərini çatdıran, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Qələbədən sonrakı proseslər, erməni lobbisinin təxribatları və buna qarşı tədbirlər barədə fikirlərini bölüşüb. Müharibə ilə əlaqədar Türkiyə Böyük Millət Məclisində təmsil olunan dörd siyasi partiyanın Azərbaycana göstərdiyi birgə dəstək bəyanatını xatırladan Şamil Ayrım diqqətə çatdırıb ki, Azərbaycanın dövlət müstəqilliyini özününkü kimi dəyərləndirən Türkiyə bütün məsələlərdə, eləcə də işğal altındakı torpaqlarımızın azadlığına göstərdiyi qardaşlıq dəstəyini bütün sahələrdə sonadək davam etdirəcək.

**Yüksək qonaqpərvərliyə görə təşəkkürlərini çatdıran Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov əminliklə bildirib ki, Azərbaycan və Türkiyə parlamentlərindəki dostluq qrupları bundan sonra da fəal şəkildə çalışacaq. Qırx dörd günlük Vətən müharibəsi dövründə Türkiyənin göstərdiyi siyasi-mənəvi dəstəyi qardaşlıq münasibəti kimi dəyərləndirən Əhliman Əmiraslanov vurğulayıb ki, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopun Gəncəyə səfəri düşməndə böyük təlaş və vahimə yaratmışdı. Müharibənin sona çatmasını bildirən üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin yaradılması ilə bağlı bəndin icrası prosesinə toxunan Əhliman Əmiraslanov əminliklə vurğulayıb ki, nəqliyyat və kommunikasiyaların açılması regionda bütün sülhsevər tərəflərin maraqlarına uyğundur.**

"Bir millət, iki dövlət" ifadəsini xatırladan TBMM-in deputatı Aylin Cəsur Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl ilə ümummilli lider Heydər Əliyevin qardaşlıq əlaqələrindən bəhs edərək bildirib ki, böyük liderlərin ideyaları bu gün gerçəkliyə çevrilib.

Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Səttar Möhbalıyev, eləcə də türkiyəli deputatlar iki qardaş ölkənin tarixi münasibətləri, dərin köklərə əsaslanan ənənələr, birgə dəyərlər barədə fikirlərini bölüşüb, gələcək fəaliyyətin səmərəli nəticələri üçün təkliflərlə çıxış ediblər.

**Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimizin birgə inkişafında mühüm rol oynadığını qeyd ediblər. Dövlət başçılarının siyasi iradələri və qətiyyətli qərarları təkcə Azərbaycan və Türkiyənin deyil, böyük bir coğrafiyada inkişafa və tərəqqiyə zəmin yaradıb.**

Diqqətə çatdırılıb ki, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Türkiyə dövlətinin və xalqının siyasi-mənəvi dəstəyi tarixi Zəfərdə böyük əhəmiyyətə malik olub.

Görüşdə Azərbaycan və Türkiyənin ümumi maraq doğuran məsələlərdə birgə fəaliyyətlərə dair səmərəli fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, Zəngəzur dəhlizinin açılması istiqamətində davamlı səylər regional inkişaf baxımından böyük önəm daşıyır.

**Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu iyunun 8-də Ankarada Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.**

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım başda olmaqla, qrup üzvləri də görüşdə iştirak ediblər.

Görüşdə Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri yüksək dəyərləndirilib, Vətən müharibəsi nəticəsində parlaq Zəfərin əldə olunmasında Türkiyənin göstərdiyi siyasi-mənəvi dəstək məmnunluqla xatırlanıb, bölgədəki yeni siyasi vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətimiz iyunun 9-da Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib.

Azərbaycan Respublikasının Milli Məclisi adından Atatürkün məzarı önünə əklil qoyulub.



Nümayəndə heyətinin üzvləri Anıtqəbir muzeyi ilə tanış olub, işçi qrupun rəhbəri Əhliman Əmiraslanov xatirə kitabına ürək sözlərini yazıb.

Daha bir görüş Türkiyənin səhiyyə naziri Fahrettin Koca ilə keçirilib.

**Görüşdə Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri, səhiyyə sahəsində əməkdaşlıq, birgə layihələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Eyni zamanda yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə tədbirlərinin nəticələrindən bəhs olunub.**



Qeyd edək ki, Azərbaycan və Türkiyə yeni növ koronavirus infeksiyasına qarşı mübarizədə nəzərəçarpan uğurlar qazanan ölkələr sırasındadır. Hər iki ölkədə virusa qarşı peyvəndləmə sürətlə aparılır.

**Azərbaycanın parlament nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin Səhiyyə, ailə, əmək və sosial məsələlər komissiyasının sədri Rəcəb Akdağ ilə də görüşüb.**

Görüşdə Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi, eləcə də parlamentlərin müvafiq komissiyaları arasındakı münasibətlərdən bəhs olunub, əlaqələrin inkişafı yüksək dəyərləndirilib, təcavüzkar Ermənistan üzərində qazanılan şanlı Zəfərimiz iftixarla xatırlanıb, Qələbədən sonrakı dövrdə səhiyyə sahəsində əməkdaşlığın qarşıya qoyduğu mühüm vəzifələrdən danışılıb.

**Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi, yeni xəstəxana və bərpa-sağlamlıq mərkəzlərinin yaradılması, həmçinin yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə tədbirləri barədə geniş məlumat verən Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov bu sahədə əməkdaşlıq əlaqələrini yüksək dəyərləndirib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad etdiyini, bu şanlı Qələbənin qazanılmasında, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Türkiyə dövlətinin və xalqının sərgilədiyi siyasi-mənəvi dəstəyi tarixi hadisə kimi dəyərləndirən Əhliman Əmiraslanov bildirib ki, qardaş ölkədə təhsil alan və çalışan azərbaycanlı həkimlərin Vətən müharibəsində respublikamıza qayıdaraq qəhrəman övladlarımıza şəfa verməsi əməkdaşlıq münasibətlərimizin ən parlaq nümunəsidir.**

Nümayəndə heyətinin rəhbəri bildirib ki, işğal altındakı torpaqlarda hər şey dağıdılıb və məhv edilib. Bölgədəki bərpa işlərində Azərbaycan və Türkiyənin birgə fəaliyyəti vacibdir.

**Parlaq hərbi Zəfərə görə təbriklərini çatdıran Türkiyə Böyük Millət Məclisinin komissiya sədri Rəcəb Akdağ bildirib ki, Azərbaycanın varlığını özü qədər sevən Türkiyə xalqı Qarabağın işğalına heç vaxt biganə qalmayıb. Azərbaycanın müstəqilliyinin qorunması və inkişafı, səhiyyə sahəsində qazandığı uğurlar Türkiyədə böyük rəğbətlə qarşılanır.**

Komissiya sədri COVID-19 infeksiyası ilə mübarizə tədbirləri və Türkiyədə görülən işlər, bu sahədə Azərbaycanla əməkdaşlıq, eləcə də virusa qarşı yerli peyvəndin hazırlanması məsələlərinə dair geniş məlumat verib.

Görüşdə səhiyyə sahəsində əməkdaşlıq yüksək qiymətləndirilib, perspektivlərə dair səmərəli fikir mübadiləsi aparılıb.

**İyunun 9-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş Prezident Rəcəb Tayyib Ərdoğanın sədri olduğu Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisindəki deputat qrupu qarşısında çıxışından sonra keçirilib.

***Görüşdən sonra xatirə şəkli çəkdirilib.***

# Səttar Möhbalıyev:

## “Azərbaycan-Türkiyə münasibətlərinin bu səviyyəyə çatmasında YAP və AKP-nin xidmətləri danılmazdır”



***“Azərbaycanla Türkiyə arasında bütün sahələri əhatə edən münasibətlər qardaşlıq prinsipləri əsasında sağlam və sarsılmaz təməl üzərində yüksələn xətlə inkişaf etməkdədir. Siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, humanitar, regional təhlükəsizlik, hərbi və digər sahələrdə uğurla davam edən əməkdaşlığımız ən yüksək səviyyədədir. Dünya dövlətləri arasında heç bir belə ikitərəfli münasibət yoxdur ki, Azərbaycan və Türkiyə kimi bir-birinə yaxın olsun. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və digər qarşılıqlı bağlara malik olmağımız bu münasibətləri daha da qırılmaz edir. 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən bu günə kimi bütün məsələlərdə hər iki qardaş dövlət bir-birinin yanında olub, istənilən beynəlxalq müstəvidə vahid maraqdan çıxış ediblər. Ulu öndər Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri- kədərimiz, sevinci - sevincimiz” və ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamları bu münasibətlərin xarakterini və mahiyyətini açıq-aydın ortaya qoyur”.***

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

“Prezident İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı səfərləri, rəsmi yazışmaları, səsləndirdikləri bəyanatlar, həyata keçirdiklər siyasi-iqtisadi layihələr münasibətlərimizin ən yaxşı səviyyədə bariz nümunəsidir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması, “Star” neft emalı zavodunun fəaliyyətə başlaması, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi iri enerji layihələri də birliyimizə, həmrəyliyimizə, qardaşlığımıza mühüm töhfə olub. Münasibətlərimizdə iqtisadi əlaqələrin mühüm əhəmiyyəti var. Statistika göstərir ki, Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya qoyan ölkə Türkiyədir. 2002-2019-cu illər arasında Türkiyədən Azərbaycana investisiya qoyuluşları 11 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmayə yatırımları isə 19,5 milyard dollar təşkil edib. Bu iqtisadi tərəfdaşlıq istər ölkə miqyasında, istərsə də region miqyasında hər iki dövlətin nüfuzunun və iqtisadi gücünün artmasında əhəmiyyətli rol oynayır”, - deyə AHİK sədri bildirib.

S.Möhbalıyevin sözlərinə görə, işğal olunmuş Azərbaycan torpaqlarının 2020-ci ildə əks-hücum əməliyyatı ilə erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə bütün mənəvi və diplomatik imkanları ilə ölkəmizin yanında oldu: “Cənab Prezident Rəcəb Tayyib Ərdoğan, digər dövlət rəsmiləri, millət vəkilləri, cəmiyyətin nüfuzlu simaları Azərbaycanın yanında olduqlarını bütün dünyaya açıq şəkildə çatdırdılar. Vətən müharibəsi dövründə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və digər dövlət rəsmiləri dəfələrlə ölkəmizə səfərlər edərək hər zaman Azərbaycanın yanında olacaqlarını bəyan etməklə bizə dəstək olurdular. Zəfər Paradında cənab Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin iştirakı qardaş münasibətlərimizi bir daha ortaya qoymuş oldu”.



**“Hər iki ölkənin hakim partiyaları - Ədalət və İnkişaf Partiyası (AKP) ilə Yeni Azərbaycan Partiyası (YAP) arasında imzalanmış əməkdaşlığa dair niyyət protokolu münasibətlərimizdə müxtəlif istiqamətlərdə yaxınlaşmanın müjdəçisidir. Geniş sosial bazaya malik hər iki partiya dövlətlərimizin güclənməsində, əlaqələrimizin bu səviyyəyə gəlib çıxmasında böyük xidmətlər göstəriblər. İnanırıq ki, bu əməkdaşlıq milli ideologiyaların inkişafına, birgə sosial layihələrin işlənib hazırlanmasına, qarşılıqlı təcrübə mübadilələrinə, eləcə də millət vəkillərinin beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti üzrə koordinasiyanın yaradılmasına bundan sonra da uğurla xidmət edəcək”, - deyə deputat əlavə edib.**

# AHİK-in İcraiyyə Komitəsi bəyanat yayıb

**İyunun 4-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi Kəlbəcərə ezam olunmuş mətbuat nümayəndələrinin və digər mülki şəxslərin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində həlak olması və yaralanması ilə bağlı bəyanat qəbul edib.**

### Bəyanatda deyilir:

**“2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması ilə İkinci Qarabağ müharibəsi başa çatsa da, beynəlxalq səviyyədə hamılıqla qəbul olunmuş konvensiyalara və əldə edilən razılıqlara baxmayaraq, Ermənistan işğaldan azad olunmuş ərazilərdə yerləşdirdikləri minaların xəritələrini Azərbaycana verməkdən hələ də müxtəlif bəhanələrlə boyun qaçırır. Bu qanunsuz hərəkətlər yüzlərlə günahsız, dinc insanların ölümü ilə nəticələnir və terrorun Ermənistan tərəfindən dövlət səviyyəsində dəstəklənməsini göstərir.**

Ermənistanın təxribatçı əməllərinin davamı olaraq bu gün xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu “KamAZ” markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - Sirac Abışov (AzTV telekanalının operatoru), Məhərrəm İbrahimov (AZƏRTAC xəbər agentliyinin müxbiri), Arif Əliyev (RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini) həlak olub, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almaqla xəstəxanaya yerləşdirilib.

Bu, bir daha göstərir ki, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Ermənistan həmişə olduğu kimi, bu gün də sülhə, təhlükəsizliyə və beynəlxalq razılaşmalara məhəl qoymur, insanlıq əleyhinə olan bütün hərəkətlərini davam etdirir.

Azərbaycan həmkarlar ittifaqları adından bəyan edirik ki, Ermənistanın bu kimi əməllərinə ikili standartları kənara qoyaraq beynəlxalq təşkilatlar tərəfindən hüquqi və siyasi qiymət verməli, dünya ictimaiyyəti tərəfindən qınanılmalıdır. Həmçinin gələcəkdə bu cür hadisələrin baş verməməsi üçün minalanmış ərazilərin xəritələrinin Azərbaycana verilməsinə dair beynəlxalq qurumlar və dövlətlər tərəfindən Ermənistana təzyiq göstərilməlidir.

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası hadisə zamanı həlak olmuş şəxslərin yaxınlarına başsağlığı verir, yaralananlara Allahdan şəfa diləyir”.**

# Tutduğumuz yer kollektivimizi düşündürən suala aldığımız qürurverici cavab oldu

**Dövlət Gömrük Komitəsi Akademiyası Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizi altında keçirilən Respublika baxış-müsabiqəsinin qalibi olub.**



Bu münasibətlə keçirilən mərasimdə çıxış edən Akademiyanın rəisi, Gömrük Xidməti general mayoru Qulu Novruzov bildirib ki, müsabiqənin nəticələri bizim üçün olduqca maraqlı idi. Çünki pandemiyanın imkanları məhdudlaşdırmasına baxmayaraq, əməkdaşlarımız üçün maksimum dərəcədə təhlükəsiz və sağlam iş şəraiti yaratmağa çalışmışıq. Bu istəyimizə nə qədər nail olmuşuq? Bu suala müsabiqə komissiyası cavab verəcəkdi. Tutduğumuz yer kollektivimizi düşündürən suala aldığımız qürurverici cavab oldu. General mayor müsabiqənin keçirilməsi və rəhbəri olduğu təşkilatın bu müsabiqədə iştirakına imkan yaratdıqları üçün AHİK-ə, onun sədri, millət vəkili Səttar Möhbalıyevə təşəkkürlərinin çatdırılmasını xahiş etdi.

**Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri Səfər İbrahimov çıxış edərək Akademiyada işçilərin əmək, sosial hüquqlarının, eləcə də sağlamlıqlarının qorunmasına xüsusi diqqət yetirildiyini söylədi. Dedi ki, burada əməyin mühafizəsi, təminatı, əmək şəraitinə, təhlükəsizlik qaydalarının tədrisinə, tətbiqinə və təlimatlandırmaya qayğı yüksək səviyyədədir. İnanıram ki, Akademiyanın kollektivi liderliyi əldən verməmək üçün əmək şəraitinin mütəmadi, yeni tələblərə uyğun yaxşılaşdırılmasına səy göstərəcək.**

Sonda S.İbrahimov AHİK-in Diplomunu və xatirə hədiyyəsini Q.Novruzova təqdim etdi.

# “Pandemiya dövründə təhsilin bütün sahələrində İKT-dən istifadənin üstünlükləri və çatışmazlıqları”



**Türkiyənin Egitim-Bir-Sen-in təşkilatçılığı ilə “Pandemiya dövründə təhsilin bütün sahələrində İKT-dən istifadənin üstünlükləri və çatışmazlıqları” mövzusunda “Cisco Webex Meetings” platforması üzərindən onlayn beynəlxalq konfrans keçirilib.**

Tədbirdə Azərbaycan, Malaziya, Litva, İndoneziya, Sinqapur, Serbiya, Cənubi Afrika Respublikası, Bolqarıstan, ümumilikdə 30 ölkənin təhsil üzrə həmkarlar ittifaqı təşkilatlarının nümayəndələri iştirak edib.

Giriş sözü söyləyən Egitim-Bir-Sen və Memur-Senin sədri Ali Yalçın tədbirə ev sahibliyi etməkdən məmnunluğunu bildirib, iştirakçılara belə bir aktual mövzu ətrafında məhsuldar müzakirələr aparmağı arzulayıb.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Səbuhi İmanov söz alaraq öncə tədbir iştirakçılarına AHİK sədri, millət vəkili, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının vitse-prezidenti Səttar Möhbalıyevin salamlarını çatdırdı.

**O, COVID-19 pandemiyasının dünyada, o cümlədən Azərbaycanda təhsil prosesinə yaratdığı çətinliklərdən danışdı. Təəssüflə qeyd etdi ki, pandemiya bütün dünya əhalisinin gündəlik həyatının ayrılmaz bir parçasına çevrilib: “UNESCO və Dünya Bankının məlumatına görə, COVID-19 pandemiyası səbəbindən dünyada 1.5 milyarddan çox şagird təhsildən kənarda qalıb. Əksər ölkələr onlayn/distant təhsilə keçib. Bu sistem inkişaf etməkdə olan ölkələrdə özünü bir o qədər də doğrultmur. Həmin ölkələrdə təhsil alanlar İKT-nin geniş tətbiq olunmadığına görə bu təhsil formasından normal istifadə edə bilmirlər. Dünyada uşaqların və yeniyetmələrin 53 %-nin evində kompüteri, 47 %-nin isə internetə çıxışının olmadığı faktları qeydə alınıb. Həmçinin aparılan araşdırmalar sübut edib ki, yaşlı nəslin İKT-dən kifayət qədər istifadə edə bilməməsi distant təhsil prosesində çətinliklər yaradıb”.**

COVID-19 pandemiyasının Azərbaycanın təhsil sisteminə təsirlərindən söz açan S.İmanov vurğulayıb ki, pandemiyanın diktə etdiyi şərtlər ölkəmizdə də təhsil sahəsində ciddi çətinliklər və öhdəliklər yaradıb, operativ qərarların qəbul olunmasını zəruri edib: “Ötən ilin mart ayından ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində əyani tədrisin, təlim-tərbiyə prosesinin bütün formaları dayandırıldı. Bütün növ kütləvi tədbirlərin təxirə salınması barədə qərar qəbul edildi. Bundan sonra növbəti addım olaraq teledərslər təşkil edildi, TİMS platforması üzərindən “Virtual məktəb” layihəsinə start verildi, ölkənin ən böyük milli onlayn platforması şagirdlərin istifadəsinə verildi və ölkədə, demək olar ki, pedaqoji prosesin bütün formaları tamamilə distant formaya keçdi”.

**Pandemiya dövründə ATİAHİ RK-nın gördüyü işlərdən danışan S.İmanov bildirib ki, Respublika Komitəsi koronavirusun yayıldığı ilk günlərdən infeksiyanın qarşısının alınması, ittifaq üzvlərinin bu çətin günlərdə sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlayıb: “Ölkədə ilk koronavirusa yoluxma halı qeydə alındıqdan dərhal sonra Respublika Komitəsi də məsafəli iş rejiminə keçib, bütün mədəni-kütləvi tədbirlər ləğv edilib, ilk təşkilatlarla Respublika Komitəsi arasında çevik onlayn əlaqənin qurulması üçün təxirəsalınmaz addımlar atılaraq maddi-texniki baza formalaşdırılıb, bütün yerli təşkilatlarda mövcud köhnə kompüter avadanlıqları yeniləri ilə əvəzlənib. Vaxtaşırı olaraq ilk təşkilatlarla onlayn konfranslar təşkil edilərək yerlərdəki vəziyyət analiz edilib”.**

S.İmanov pandemiya dövründə İKT-dən istifadədə yaşanan problemlərdən danışaraq əlavə edib ki, ölkənin ucqar rayonlarında internetin bütün təhsil alanlar və müəllimlər üçün əlçatan olmaması, 44 günlük Vətən müharibəsi dövründə milli təhlükəsizliyin təmin edilməsi məqsədilə internetə tətbiq olunan məhdudiyyətlər təhsil prosesinin həyata keçirilməsində çətinliklər yaradıb: “Nəzərinizə çatdırmaq istəyirəm ki, 2020-ci ilin 27 sentyabrında Ermənistan tərəfinin hərbi təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında qalan bütün torpaqlarını azad etdi. Müharibə dövründə ölkənin milli təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkədə internetin verilişində bir sıra məhdudiyyətlər tətbiq edildi ki, bu da davamlı təhsilin təmin edilməsinə öz mənfi təsirlərini göstərdi”.

**Pandemiya dövründə bəşəriyyət fiziki və mental olaraq əziyyət çəksə də, qeyd olunmalıdır ki, təkcə ana təbiət bu görünməz virusdan bəhrələnib. Belə ki, ekologiya, çox qısa müddətdə olsa da, səs çirklənməsi, işıq çirklənməsi və toz çirklənməsi kimi ekoloji problemlərdən azad olub.**

# İlin peşəkar gəncləri

**2020-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının verilməsi haqqında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi qərar qəbul etmişdir. Qərarda deyilir ki, respublikada həmkarlar ittifaqı üzvlərinin üçdəbiri 35 yaşınadək olan gənclərdir.**

Bu gün Azərbaycan gəncləri yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edirlər. Həmkarlar ittifaqları gənclərin fəallığını təmin etməyə, rəhbər orqanlarda təmsil olunmalarına şərait yaratmağa, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunmasına çalışırlar.

Artıq bir neçə ildir ki, həmkarlar ittifaqlarının gənclər şuraları fəaliyyət göstərir. Gənc liderlər beynəlxalq təşkilatların keçirdikləri toplantılara dəvət edilir. "İlin peşəkar gənci" fəxri adı gənclər şuralarının fəaliyyətinin yüksəldilməsinə, istedadlı gənclərin üzə çıxarılmasına, onlara həmkarlar ittifaqı təşkilatları tərəfindən diqqətin artırılması məqsədilə təsis edilmişdir.

**Belə ki, 23 sahə həmkarlar ittifaqı orqanından 50 nəfər gənc işçinin sənədləri AHİK-ə daxil olmuş, onların fəaliyyətini əks etdirən məlumatlar ümumiləşdirilərək təqdimat hazırlanmışdır.**

Qərarda qeyd olunur ki, "İlin peşəkar gənci" fəxri adı əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə verilsin.

Fəxri ada layiq görülmüş gənclərə AHİK-in Fəxri Diplomu, Döş nişanı və vəsiqəsi təqdim edilsin.

Sahə həmkarlar ittifaqı orqanlarına tapşırılsın ki, əməkdə, təhsildə və ictimai fəaliyyətdə yüksək nailiyyətlər qazanmış gənclər haqqında təqdimatlar hər il dekabrın 1-nə qədər AHİK-in Zəhmətkeşlərin mədəni-məişət problemləri üzrə analitik tədqiqat şöbəsinə təqdim edilsin.

**"İlin peşəkar gənci" fəxri adına layiq görülmüş gənclər haqqında məlumatlar "Ülfət" qəzeti, digər həmkarlar ittifaqları nəşrləri və saytları vasitəsilə işıqlandırılsın.**

# 2020-ci il üzrə "İlin peşəkar gənci" fəxri adına layiq görülmüş gənclərin SİYAHISI

| № | Soyadı, adı atasının adı | Doğulduğu tarix | Təhsili | İxtisası | İş yeri və vəzifəsi |
|---|---|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası** | | | | | |
| 1.1 | Baxşəliyeva Dilarə Səlvər qızı | 29.09.1991 | Ali | Həkim–pulmonoloq | Naxçıvan MR Xəstəxanası Publik Hüquqi Şəxsin Pulmonologiya bölməsinin müdiri, həkim-pulmonoloq |
| 1.2 | Bağırova Təbrizə Hüseyn qızı | 01.01.1999 | Ali | Beynəlxalq münasibətlər | Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri |
| 1.3 | Babayev Tərmenxan Turan oğlu | 08.01.2002 | Natamam ali | Ağır atletika | Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının Ağır atletika fakültəsinin Tələbə Həmkarlar İttifaqının sədri, Şərur rayonu Ağır Atletika Klubunun idmançısı. |
| **2. Dəniz Nəqliyyatı İşçiləri HİRK** | | | | | |
| 2.1 | İslamov Ramazan Yaşar oğlu | 09.02.1994 | Ali | Proseslərin avtomatlaşdırılması mühəndisi | Zığ Gəmi Təmiri və Tikintisi Zavodu, istehsalat dispetçer şöbəsinin sənədlərə nəzarət üzrə mütəxəssisi |
| **3. Milli Elmlər Akademiyası Azad Hİ** | | | | | |
| 3.1 | Həsənli Mehman Ağasəlim oğlu | 03.05.1989 | Ali | Filoloq, ədəbiyyatşünas | AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi |
| 3.2 | Mirzəyeva Gülnar Rövşən qızı | 23.09.1985 | Ali | Mexanika, Deformasiya olunan bərk cismin mexanikası | 2019-cu ildən Azərbaycan Dövlət Dəniz Akademiyası, Tətbiqi Mexanika kafedrasında (0.5 ştat) əvəzçi müəllim |
| 3.3 | İsmayılova Günay Gəray qızı | 07.08.1987 | Ali | Kimya | AMEA-nın Aşqarlar Kimyası İnstitutunda Gənc Alimlər və Mütəxəssislər Şurasının sədr müavini |
| **4. Dəmiryolçuların Müstəqil HİRK** | | | | | |
| 4.1 | Əsədli Araz Səxavət oğlu | 28.06.1987 | Ali | Hüquqşünas | Dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi, Hüquq məsələləri üzrə mütəxəssis |
| **5. "İnşaat-İş" Hİ** | | | | | |
| 5.1. | Hacıyev Emil Telman oğlu | 08.05.1988 | Ali | Fiziki qurğuların elektronikası | «Holcim» (Azərbaycan) ASC Doğrayıcı qurğu maşinisti |
| **6. Təhsil İşçiləri Azad HİRK** | | | | | |
| 6.1. | Əlican-zadə Şəbnəm İlham qızı | 27.10.1992 | Ali | Hüquqşünas | Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Hüquq sektoru, aparıcı məsləhətçi |
| 6.2. | Talıblı Rəhimə Əlövsət qızı | 17.09.1988 | Ali | Hüquqşünas | Bakı Slavyan Universiteti, Diplomatiya və xarici siyasət kafedrası, müəllim |
| 6.3 | Nəsibova Gülnarə Məmməd qızı | 07.01.1986 | Ali | Kimya-Biologiya | Şəki şəhər, 17 nömrəli tam orta məktəb, direktor |
| 6.4 | Abbasov Elvin Sevdimalı oğlu | 26.05.1986 | Ali | Ümumtəhsil orta məktəbində coğrafiya müəllimi | Beyləqan rayonu, 6 nömrəli şəhər ümumi orta məktəbində coğrafiya müəllimi |
| 6.5 | Nəzərova Günay Müslüm qızı | 29.11.1993 | Ali | Fizika | Sabunçu rayonu, 4 №-li məktəb, müəllim |
| **7. «Baku Stil Kompani» MMC İşçiləri Həmkarlar İttifaqı Birliyi** | | | | | |
| 7.1 | Səfərli İlham İlqar oğlu | 19.06.1994 | Orta | Sənayenin təşkili və idarə edilməsi | «Baku Steel Company» MMC Elektrik Poladəritmə sexi I tökücü |
| **8. "Xidmət-İş" Hİ Federasiyası** | | | | | |
| 8.1 | Hüseynov Rövşən Ənvər oğlu | 08.05.1988 | Orta | Dövlət və bələdiyyə idarə edilməsi üzrə menecer, sənayenin təşkili və idarə olunması | «Xidmət-İş» Hİ Federasiyası Nərimanov Rayon Komitəsinin sədri |
| 8.2 | Əhmədova Aynur Eldar qızı | 02.01.1986 | Ali | Əczaçı | «Qırxbulaq» MMC |
| 8.3 | Cəfərov İsmət Şikar oğlu | 13.04.1993 | Ali | Maliyyə | «Aqrar Tədarük və Təchizat» ASC, Büdcə, hesabatlıq və proqnozlaşdırma şöbəsinin baş mütəxəssisi |
| 8.4 | Dadaşova Ülkər Fəxrəddin qızı | 02.07.1990 | Orta | Maliyyə və Vergi hüququ | «İlham Co» MMC- də aparıcı mühasib |
| **9. Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK** | | | | | |
| 9.1 | Abdullayev Nihad Hafiz oğlu | 03.02.1996 | Ali | Texnologiya mühəndisi | «Azərişıq» ASC Operativ Texniki Xidmət II şəxs elektrik montyoru |
| 9.2 | İsmayılzadə Zaur Abbas oğlu | 29.09.1989 | Ali | İqtisadçı | «Azərişıq» ASC-nin Maliyyə departamentinin mərkəzi mühasibatlığının baş mühasibinin müavini |
| **10. Fövqəladə Hallar Nazirliyi İşçiləri Hİ** | | | | | |
| 10.1 | Kəsəmənli Rəşad Faiq oğlu | 13.10.1993 | Ali | Yanğın mühəndisi | FHN İdman Sağlamlıq Klubu, Fiziki hazırlıq şöbəsinin yanğından mühafizə xidmətlərində fiziki hazırlıq işinin təşkili bölməsinin baş inspektoru |
| 10.2 | Useynov Tural Şamil oğlu | 30.04.1995 | Orta | | Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Azərbaycan Dövlət Neft Şirkəti Obyektləri üzrə Yanğından Mühafizə İdarəsinin 56 nömrəli Yanğından mühafizə hissəsinin komendantı |
| 10.3 | Yaqubov Elşən Elman oğlu | 31.08.1987 | Orta | | Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin Çevik Xilasetmə İdarəsinin Təminat bölməsinin baş sürücüsü |
| 10.4 | Mirzəyev Elvin Bəylər oğlu | 27.12.1987 | Orta | | Bakı dalğıc-axtarış qrupunun dalğıcı (qrupun rəis əvəzi) |
| **11. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK** | | | | | |
| 11.1 | Mürşüdov Ramin Fərman oğlu | 27.07.1989 | Orta | | 329 nömrəli hərbi hissənin İstehsalat bölməsinin təmir sexinin elektromexaniki |
| **12. Aviasiya İşçiləri HİRK** | | | | | |
| 12.1 | Babayev Emin Hidayət oğlu | 07.05.1987 | Ali | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | Hava Limanlarının İstismarının Baş İdarəsinin yerüstü qurğuların istismarı və əsaslı tikinti idarəsi, mühəndis |
| 12.2 | Məmmədli Hikmət Zakir oğlu | 05.11.1991 | Ali | Mühəndis- pilot | AHY SAŞ, Uçuşların İstehsalı İdarəsinin, Uçuş Xidmətinin Boeing- 757 HG-nin 2-ci pilotu |
| 12.3 | Cəfərov Cəfər Cəmaləddin oğlu | 03.08.1992 | Ali | Azərbaycan Milli Aviasiya Akademiyası | Aviasiya Təhlükəsizliyinə baxış və nəzarət üzrə mütəxəssis |
| **13. «Kənd-Qida-İş» Hİ Federasiyası** | | | | | |
| 13.1 | Məmmədov Gündüz Tahir oğlu | 18.12.1990 | Ali | Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi (Hidrotexniki tikinti) | «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin Elm, Layihə və Xarici Əlaqələr şöbəsinin aparıcı məsləhətçisi |
| 13.2 | Atayev Elnur Allahverdi oğlu | 20.05.1990 | Ali | Maliyyə | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi İnsan resursları şöbəsinin Kadr məsələləri sektorunun müdiri |
| 13.3 | Seyfullayev Fuad Valeh oğlu | 09.03.1987 | Ali | Ümumi iqtisadiyyat, Beynəlxalq iqtisadi münasibətlər | «Azərsun Holding» Şirkətlər Qrupu, «Xəyal Adası» MMC-də Təsis Xidmətləri, şöbə müdiri |
| **14. Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK** | | | | | |
| 14.1 | Əzizli Nərmin Dadaşbala qızı | 02.07.1993 | Ali | Hidrometeorologiya | Sənədlərlə iş sektoru, məsləhətçi |
| 14.2 | Həsilova Dünya Şahin qızı | 08.04.1991 | Ali | Bioloq | Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti, Xüsusi mühafizə olunan ərazilərin inkişafı şöbəsinin məsləhətçisi |
| **15. Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK** | | | | | |
| 15.1 | Həşimli Tofiq İlham oğlu | 01.01.1995 | Ali | Elektroenergetika mühəndisi | Rele mühafizəsi və Avtomatika xidmətində elektrik mühəndisi |
| **16. Bələdiyyə İşçiləri HİRK** | | | | | |
| 16.1 | Hüseynli Anar Yusif oğlu | 07.05.1988 | Ali | Avianəqliyyat istehsalatının təşkili | Xəzər rayon Zirə qəsəbə bələdiyyəsi, sədr |
| **17. Neft və Qaz Sənayesi İşçiləri HİRK** | | | | | |
| 17.1 | Qədirzadə Nigar Elşən qızı | 14.01.1993 | Ali | Kompüter elmləri, İqtisadi fəaliyyətin riyazi və informasiya təminatı | «Azəriqaz» İB, BRQSD-nin Müştəri xidməti şöbəsində 13-cü dərəcəli böyük mühəndis |
| 17.2 | Qafarov Ağasəlim Cavan oğlu | 08.04.1994 | Ali | Xəzər Universiteti Kompüter Şəbəkələrinin proqram təminatı | Bakı Ali Neft Məktəbi Texniki istismar sahəsi, mühəndis |
| 17.3 | Vəliyev Ceyhun Rafiq oğlu | 24.02.1992 | Ali | Texnoloji maşın və avadanlıqların mühəndisliyi | Etilen-Polietilen Zavodu, 05 saylı Piroqazın və suyun hazırlanması sahəsi, 12-ci dərəcə böyük mexanik |
| **18. "Azərsu" Təsərrüfatı İşçiləri Hİ** | | | | | |
| 18.1 | Rzayev Rövşən Zöhrab oğlu | 24.10.1989 | Ali | Sumqayıt Dövlət Universiteti - Sosiologiya | «Azərsu» ASC-nin İnsan resursları şöbəsi, mühəndis |
| **19. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ** | | | | | |
| 19.1 | Abbasov Elmir İlham oğlu | 24.06.1989 | Ali | Beynəlxalq İqtisadi Əlaqələr | «Avtomobil Yollarının Mühafizə Xidməti» MMC, HİK sədri, baş mütəxəssis |
| **20. Mədəniyyət İşçiləri HİRK** | | | | | |
| 20.1 | Əhmədova Əsli Telman qızı | 21.06.1985 | Ali | Dilşünaslıq | AHİK «Ülfət» qəzeti, müxbir |
| 20.2 | Mehbalıyev Anar Nurəddin oğlu | 07.12.1985 | Ali | Roman-German filologiyası | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini |
| 20.3 | Talıbov Əzim Zahid oğlu | 01.01.1991 | Ali | Maliyyə və kredit | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi- mütəxəssis |
| **21. Gömrük İşçiləri Hİ Birliyi** | | | | | |
| 21.1 | İsmayılov Anar Şəmistan oğlu | 10.09.1990 | Ali | Birja fəaliyyəti və fond bazarı | Dövlət Gömrük Komitəsi Şimal Ərazi Baş Gömrük İdarəsi, Gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi |
| 21.2 | Hüseynzadə Elbəy Oktay oğlu | 21.10.1995 | Ali | İqtisadiyyat | Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsi Qırmızı körpü gömrük postunun böyük inspektoru |
| 21.3 | Əliyev Vasif Şakir oğlu | 17.09.1994 | Ali | Beynəlxalq münasibətlər; Beynəlxalqmünasibətlər və diplomatiya | Dövlət Gömrük Komitəsi Cənub Ərazi Baş Gömrük İdarəsi Biləsuvar gömrük postunun inspektoru |
| **22. Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK** | | | | | |
| 22.1 | Rəsulov Əli Kamran oğlu | 06.01.1987 | Ali | Şəbəkələr, rabitə sistemləri və informasiyanın paylanması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Hİ Həmkarlar İttifaqı Şəki şöbəsinin sədri |
| 22.2 | Rəhimli Cavid Müşfiq oğlu | 20.12.1993 | Ali | Hüquqşünas | NRYTN «Azərpoçt» MMC-nin Struktur Bölmələrlə İş və Nəzarət Departamentinin filial şəbəkəsinin idarəedilməsi şöbəsinin müdiri |
| 22.3 | Musayev Orxan Allahverdi oğlu | 05.08.1987 | Ali | Turizm və sosial mədəni servis xidməti | Dövlət Radiotezliklər İdarəsi, mühəndis |
| **23. Müdafiə Sənayesi İşçiləri HİRK** | | | | | |
| 23.1 | Ramazanov Rövşən Həsən oğlu | 03.04.1990 | Ali | Mühəndis-ekoloq | Milli Aerokosmik Agentliyinin Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu, şöbə rəisi |
| 23.2 | Əlizadə Təhməz Zabit oğlu | 01.09.1993 | Ali | Azərbaycan dili və ədəbiyyat müəllimliyi | «İqlim EİM» MMC sex rəisinin müavini |
| **24. Səhiyyə İşçiləri HİRK** | | | | | |
| 24.1 | Məmmədova Türkanə Dünyabəy qızı | 06.07.1991 | Ali | Həkim-pediatr | K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, həkim-pediatr |

# Adı da, məhsullarının dadı da

## çox-çox uzaqlarda tanınır



**Əməyin mühafizəsi sahəsində beynəlxalq təcrübənin mütərəqqi cəhətləri əxz olunmaqla qanunvericilik bazasının təkmilləşdirilməsi və konkret əməli tədbirlərin həyata keçirilməsi baxımından Azərbaycan regionda qabaqcıl ölkədir. Bu, Prezident İlham Əliyevin hər bir azərbaycanlının sağlam həyat tərzinə xidmət edən uğurlu siyasəti, həmçinin işçilərin hüquqlarının təminatına daim xüsusi diqqət və qayğı göstərməsi ilə bağlıdır. Prezidentimizin bu siyasətinin davamı olaraq Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən müxtəlif stimullaşdırıcı tədbirlər, o cümlədən hər il "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilat)" adı altında müsabiqələr keçirilir. "Kənd-Qida-İş" Hİ Federasiyası da Konfederasiyanın bu tədbirlərinin fəal iştirakçıları sırasında olur. 2020-ci il üçün "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilati)" Respublika baxış-müsabiqəsində "Kənd-Qida-İş"in də xidmətində olan bir neçə müəssisə qaliblər sırasında yer tutdu. Bir neçə gün əvvəl onlardan birinin - "Azərsun Holdinq" Şirkətlər Qrupunun "Lənkəran Konserv Zavodu" ASC-nin kollektivinə AHİK-in Fəxri Diplomunun və qiymətli hədiyyələrin təqdim olunması mərasimi keçirildi. Federasiyanın sədri Tofiq Quliyev "Lənkəran Konserv Zavodu" ASC-nin rəhbəri Nurlan Əliyevə AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin təbriklərini çatdırmış və gələcək işlərində uğurlar arzulamışdır. O, müəssisənin perspektivlərindən, yüksək əmək şəraitindən, işçilərə göstərilən diqqət və qayğıdan söz açmış və əmək şəraitinin yaxşılaşdırılması, təhlükəsizlik qaydalarına əməl edilməsi, işçilərin sağlamlığının qorunması, əməkdaşların qayğısına qalınmasının mühüm vəzifələrdən biri olması barədə məlumat vermişdir.**

Tədbirdə AHİK-in əməyin aparıcı texniki müfəttişi Nadir Muradov da iştirak etmişdir. Nurlan Əliyev təbriklər üçün təşəkkürünü bildirmişdir. Demişdir ki, əsası 2010-cu ildə qoyulan "Gilan Lənkəran Konserv Zavodu" MMC Azərbaycanın cənubunda 2 hektarlıq ərazidə yerləşir. Məhz yüksək keyfiyyət və unudulmaz dadına görə məhsulları beynəlxalq sərgilərdə qızıl medal və diplomlarla təltif edilmişdir. MDB, Avropa, ABŞ, Asiya, Avstraliya və Yeni Zelandiyada geniş alıcı bazarına malikdir. Zavodun illik istehsal gücü 12 000 tondur.

Lənkəran Konserv Zavodunda mövsüm dövründə 300-350 nəfərlik iş yeri yaranır. Müəssisədə 87 nəfər müddətsiz, 400 nəfər müddətli çalışan işçi var.

**Çıxışının sonunda N.Əliyev işçilərin təhlükəsizliyinin, sağlamlığının qorunmasının təmin edilməsi barədə daim düşündüklərini bir daha qeyd etmişdir.**

# Təhlükəsiz iş şəraiti müasir texnologiya əsasında yaradıla bilər



**"Azərsu" ASC-nin Nəzarət Ölçü Cihazları İdarəsi və Mərkəzi Laboratoriyası həm istehsalat göstəricilərinə, həm də yaradılmış əmək şəraitinə görə xüsusi çəkiyə malikdir. Təsadüfi deyil ki, bu müəssisələr Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 2020-ci il üçün keçirdiyi "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" Respublika baxış-müsabiqəsində qaliblər sırasında yer tutdu. Bu günlərdə ASC-nin layiq olduğu mükafat kollektivə təqdim edildi.**

Təqdimetmə mərasimində hər iki qurumun nümayəndələri çıxış edərək təhlükəsiz iş yerlərinə nail olmaq istiqamətində həyata keçirilən tədbirləri açıqladı. Bildirdilər ki, iş yerlərinin müasir avadanlıqlar əsasında quraşdırılması çox mühüm amildir. Bu amil işçilərin sağlamlığının təminatı baxımından əsas rol oynayır. ASC-nin müvafiq strukturlarının və həmkarlar ittifaqının əməkdaşları, fəalları ilboyu mütəmadi olaraq ciddi araşdırma, təhlillər aparır, nöqsanları üzə çıxarır, həlli üçün birlikdə operativ tədbirlər görürlər. Bu da son nəticədə həm müəssisələrin göstəricilərinə, həm də işçilərin sağlamlıqlarına müsbət təsir göstərir.

"Azərsu" Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Akif Məmmədov müsabiqənin hazırlanmasında və yerlərdə maarifləndirmə işlərinin həyata keçirilməsində sədri olduğu təşkilatın fəaliyyətindən danışdı. Dedi ki, əməkdaşlarımız müsabiqə iştirakçısı olan müəssisələrlə sıx əlaqə saxlamış, metodiki, əyani köməyini əsirgəməmişdir.

AHİK-in əməyin texniki müfəttişi Mürvət Mehrabov müsabiqənin məqsəd və əhəmiyyəti barədə geniş məlumat vermişdir.

**Sonda ASC-nin nümayəndələrinə AHİK-in Fəxri Diplomu və qiymətli hədiyyələr təqdim olunmuşdur.**

# Daha bir pilot layihə



**İyunun 2-də Onlayn İctimai Nəzarət Platformasının (www.enezaret.az) təqdimatı keçirilib. Platformanın məqsədi ictimaiyyəti narahat edən müəyyən məsələlərə dair (yol, infrastruktur, abadlıq və s.) vətəndaşlardan video və foto sübutu olan məlumatı qəbul etmək və müvafiq dövlət orqanlarında onların həllinə nail olmaqdır. Boru sızması, məişət tullantılarının daşınmaması, yol örtüyünün dağılması, aşmış ağaclar, açıq lyuklar və sair problemlərlə rastlaşdıqda vətəndaşlar WhatsUp (055 4502013) və ya sayt vasitəsilə (www.enezaret.az) Enəzarət komandasına məlumatı çatdıracaq, platformanın vəkilləri isə problemlərin həlli istiqamətində müvafiq addımlar atacaq.**

Mətbuat konfransında çıxış edən Açıq Hökumət Platformasının koordinatoru Əliməmməd Nuriyev ölkəmizdə ictimai nəzarət və ictimai iştirakçılıq sahəsində qanunvericilik, ölkə rəhbərliyinin siyasi dəstəyi və son illərdə həyata keçirilən fəaliyyətlər haqqında məlumat verib. Əliməmməd Nuriyev Onlayn İctimai Nəzarət Platformasının vətəndaşlar üçün bir çox imkanlar yaratdığını qeyd edib.

USAID-in ölkə üzrə missiya direktoru Caydev Sinqh təmsil etdiyi qurumun Azərbaycan hökumətinə və xalqına dost münasibətini vurğulamış, Azərbaycanda həyata keçirilən islahatlara USAID tərəfindən daima dəstək verildiyini qeyd edib. Caydev oxşar platformanın ABŞ-da uğur qazandığını və eyni uğuru Azərbaycanda da görmək istədiyini bildirib.

**Layihənin icraçısı olan "MG Consulting" şirkətinin rəhbəri Məhəmməd Quluzadə ECSOFT layihəsi, Onlayn İctimai Nəzarət Platforması və platformanın iş mexanizmi barədə ətraflı məlumat verib.**

Onlayn İctimai Nəzarət Platforması ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti (ECSOFT) layihəsi çərçivəsində Açıq Hökumət Milli Platforması ilə əməkdaşlıqda həyata keçirilən pilot layihədir.

Tədbirin sonunda ECSOFT layihəsi çərçivəsində keçirilmiş "Korrupsiya ilə mübarizə" mövzusunda poster və videoçarx ideyası müsabiqəsi üzrə qaliblərə mükafatlar təqdim edilib.

**Tədbirdə "Xidmət-İş" Hİ Federasiyasının vitse-prezidenti Cəmaləddin İsmayılov çıxış edib, pilot layihənin Azərbaycanda tətbiqinin perspektivlərindən danışıb.**

# Şəhidlik zirvəsinin fatehləri

## Vətənə canımızdan başqa verməyə axı nəyimiz var ki?!



**Uğrunda qan tökdüyü Şuşa azad olunan gün torpağa tapşırılan şəhid mayor Asiman Vaqif oğlu Əliyev 1987-ci il fevralın 1-də Ordubad rayonunun Düylün kəndində anadan olub. Orta məktəbi həmin kənddə bitirən Asimanın hələ uşaq yaşlarından hərbə böyük marağı olub. Valideynləri onun bu istəyinə qarşı çıxsalar da, o, 2001-ci ildə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verib. Asiman 2001-2004-cü illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə "motoatıcı taqım komandiri", 2008-2009-cu illərdə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "zabit" ixtisasları üzrə təhsil alıb. Təhsilini başa vurduqdan sonra ön xətdə xidmətə başlayıb. Təlimlərdə fəal iştirak edib, xidməti dövründə dəfələrlə orden və medallarla təltif olunub.**

A.Əliyev Aprel döyüşlərinin iştirakçısı olub. Tərtər istiqamətində gedən qızğın döyüşlər zamanı idarə etdiyi avtomobil qəlpə zərbələrinə tuş gəlib. Xoşbəxtlikdən özü sağ qurtula bilib.

Vətən müharibəsi başlayan gündən Asim döyüşlərə getmək üçün müraciət etdi, lakin Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kurs rəisi olduğu üçün onun döyüşlərə getməsi, hələ ki, məqbul sayılmadı. Dedilər ki, vaxt çatanda özümüz səni çağıracağıq.

**Həyat yoldaşı Aysel Həsənli deyir ki, döyüşlərə qoşulmağa çox tələsirdi: "Deyirdi, utanıram, yoldaşlarım ön cəbhədədir, şəhid olanları da var. Amma mən hələ də buradayam".**

Nəhayət, Asiman Əliyevin gözlədiyi gün gəlib çatır. Noyabrın 4-ü əmr gəlir və mayor döyüşlərə yollanır. Həyat yoldaşı ilə sonuncu dəfə danışanda son sözləri belə olur: "Övladlarım sənə əmanətdir".

**Asiman Əliyev Xocavənd və Şuşa uğrunda gedən ən qızğın döyüşlərdə tabor komandiri kimi iştirak edib. O, hərbçi kimi sərt olsa da, tabeliyində olan əsgərləri övladlarından ayırmırdı. Hətta döyüş zamanı qızına yolladığı məktubunda belə yazır: "Ata üçün darıxma, İnşallah, gələcəyəm. Atanın evdə 3, işdə isə 340 övladı var".**

A.Əliyev noyabrın 7-si Xocavənd uğrunda gedən döyüşlər zamanı qəlpə yarası alaraq Şəhidlik zirvəsinə ucalır.

**Dostu Nail Kərimov onunla şəhid olan günün səhəri danışıb. Deyir, sanki hiss eləmişdi ki, həmin gün ən ali zirvəyə ucalacaq: "Dedim, ehtiyatlı ol. Biz evimizə qayıtmalıyıq, uşaqlarımız bizi gözləyir. Dedi, qorxma, Vətənə canımızdan başqa verməyə axı nəyimiz var ki?!"**

Hətta Nail yeni dünyaya gələn övladına şəhid dostunun adını verir.

**A.Əliyev noyabrın 8-i-uğrunda vuruşduğu Şuşanın azad olunduğu gün şəhid olur. II Fəxri xiyabanda dəfn edilir.**

Asiman Vaqif oğlu Əliyev "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

**Onu da qeyd edək ki, şəhidin anası Gülayə xanım oğlunun yoxluğuna dözə bilməyib, Asimanın vəfatından 40 gün sonra o da dünyasını dəyişib.**

## "Mən Şəhid olacağam"



**Orxan Qədim oğlu İsmayılov 1990-cı il sentyabrın 24-də Qusar rayonunda anadan olub. Orta təhsilini Həsənqala kənd tam orta məktəbində alıb. 2008-2010-cu illərdə Daxili Qoşunların Sumqayıtda yerləşən hərbi hissəsində müddətli hərbi xidmətdə olub. 2014-cü ildə Müddətdən Artıq Xidmət Edən (MAXE) hərbi qulluqçu kimi Milli Orduda xidmətə başlayıb, kiçik çavuş hərbi rütbəsi alıb. O, zirehli transportyor (ZTR) idarə edib.**

Orxan Aprel döyüşlərinin də iştirakçısı olub.

Anası Zərnişan İsmayılova deyir ki, illərlə köhnə evdə yaşadıqları üçün oğlunun ən böyük arzusundan biri ailəsinə yeni ev tikmək olub: "Hətta bünövrəsini belə atmışdı. Kasıbçılıqla böyütmüşəm mən uşaqlarımı. Bir inəyimiz var idi, onun ağartısı ilə dolanmışıq. Yoldaşım fəhlə işləyirdi, onun maaşı ilə, halal zəhmətimizlə böyütmüşəm onları".

**Orxan evləndikdən 7 il sonra Yağmur adlı qızı dünyaya gəlir. Yeni doğulmuş oğlu Seyidin üzünü isə cəmi bir gün görə bilir. Oğlunu gördüyü günün sabahısı Vətən müharibəsinə yollanır. Sanki hiss edibmiş kimi, cəbhəyə getməzdən öncə həyat yoldaşına deyir: "Mən Şəhid olacağam". Oktyabrın 3-də sinif yoldaşına zəng vuraraq ailəsini tapşırır: "Özünüzdən, ailəmdən muğayat olun. Mən qayıtmayacağam, heç kimə heç nə demə".**

Anası deyir, müharibəyə gedəcəyini evdə atasından başqa heç kimə deməyib. Ona isə Füzulidən zəng edərək "ana, narahat olma, biz Vətənimizi qorumağa gedirik" deyib.

44 günlük Vətən müharibəsində Füzuli rayonu uğrunda gedən qızğın döyüşlərdə oktyabrın 3-dən 4-nə keçən gecə yaralı əsgərə yardım edən zaman yanına mərmi düşür və Orxan ayaqlarındam ciddi xəsarət alır. Döyüş yoldaşları onu hospitala çatdırmaq üçün təcili "Sand Cat" zirehli nəqliyyat vasitəsinə qoyurlar. Lakin hadisə yerindən 120-150 metr aralandıqdan sonra "Sand Cat" minaatanla vurulur və Orxan şəhid olur.

Oktyabrın 6-da doğma Həsənqala kəndində torpağa tapşırılıb.

**Atası Qədim İsmayılov: "Başda öz oğlum olmaqla, bütün şəhidlərimizlə fəxr edirəm. Qürur duyuram ki, bu uşaqların qanı, canı bahasına torpaqlarımız azad olundu".**

Anası Zərnişan xanım: "Şəhid analarına demək istəyirəm ki, səbirli olsunlar. Bizim balalarımızın qanı yerdə qalmadı".

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, kiçik çavuş Orxan Qədim oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.**

**Materialları hazırladı: Aliyə SƏMƏDOVA**

# “Minalanmış ərazilər yeni bir terror formasının təzahürüdür”



**Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular birgə bəyanat imzalandığı gündən bəri 120-dən çox ölkə vətəndaşının həlak olmasına və ya yaralanmasına səbəb olub. Qeyd edim ki, 10 noyabr 2020-ci ildən bu günə azad edilmiş ərazilərdə 7 hərbi qulluqçu və 20 mülki şəxs həlak olub, 86 hərbi qulluqçu, 29 mülki şəxs bədən xəsarətləri alıb.**

***-Bunlar göstərir ki, 44 günlük müharibədə Azərbaycanın qalibiyyətini həzm edə bilməyən, daha da azğınlaşmış ermənilərin məkirli siyasəti müxtəlif terror hadisələri törətməklə davam edir. Bütün bu və ya digər erməni təxribatlarının qarşısının alınması istiqamətində müvafiq qurum və strukturlarımız hansı addımlar atır?***

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, millət vəkili Tural Gəncəliyev mövzumuzla bağlı suallarımıza aydınlıq gətirdi. Dedi ki, Vətən müharibəsi nəticəsində torpaqlarımız 30 ilə qədər davam edən işğaldan azad edildi. Qarşılıqlı imzalanmış bəyanatın şərtlərinə əməl edərək Azərbaycan Respublikası bölgədə sülhün bərqərar olması üçün öz üzərinə düşən bütün addımları atır. Praqmativ konstruktiv gedişlərdə də tezliklə sülhün bərqərar olmasını istəyir. Təəssüf ki, Ermənistan tərəfi bu düşüncədə deyil. Minalanmış ərazilərimizin xəritəsinin təqdim edilməməsi və bunun nəticəsi olaraq 100-dən çox vətəndaşımızın ermənilərin basdırdığı minaya düşərək müxtəlif bədən xəsarətləri alması, şəhid olması mənfur düşmənlərin növbəti təxribat əməli kimi başa düşülməlidir. Bir sözlə, Ermənistanın siyasətində minalanmış ərazilər yeni bir terror formasının təzahürüdür. Biz bunu belə başa düşürük. Hesab edirəm ki, Ermənistan ictimaiyyəti müharibəni uduzmağı həzm edə bilmir. Məhz ona görə də belə təxribat xarakterli addımlar atırlar.

**Millət vəkili qeyd etdi ki, bəlkə də ermənilər bu əməlləri ilə psixoloji gərginlik yarada biləcəklərini, Azərbaycan vətəndaşlarının mina partlayışından qorxub gələcəkdə öz torpaqlarına dönməkdə tərəddüt edəcəklərini düşünürlər. Ancaq unudurlar ki, 44 günlük müharibədə necə ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azəbaycan Respublikası öz gücünə arxalanaraq diplomatik və siyasi gedişləri konstruktiv hesablayaraq addımlar atdı və torpaqlarımızı işğaldan ağılla, səbirlə, siyasi və hərbi güclə azad etdi. Əminəm ki, bu məsələdə də eynilə olacaq. Minalı ərazilərin xəritəsini təqdim etməsələr belə, biz istənilən halda torpaqlarımızı erməni terrorundan təmizləyəcəyik. Bu və digər erməni təxribatlarının qarşısının alınması ilə bağlı dövlətin istər diplomatik siyasi qurumları, istər Müdafiə Nazirliyi və digər aidiyyəti qurumları lazımi işlər aparır.**

***-Xidməti vəzifələrini icra edərkən minaya düşərək şəhid olan jurnalistlərimiz Sirac Abışov və Məhərrəm İbrahimovun ölümündən sonra Beynəlxalq Jurnalistlər Federasiyası və Avropa Jurnalistləri Federasiyasının baş katibləri birgə bəyanat yaydılar ki, biz Azərbaycan səlahiyyətlilərini bu ərazilərdə jurnalistləri risklərə məruz qoymamağa, Ermənistan hakimiyyətini isə daha çox mülki itki verməmək üçün minalanmış ərazilərin xəritələrini təhvil verməyə çağırırıq. Bizi qane etməyən, ikili xarakter daşıyan bu cür bəyanatların verilməməsi üçün nə etməliyik?***

-İstər Beynəlxalq və Avropa Jurnalistlər federasiyalarının, istərsə də məsələ ilə bağlı ATƏT-in, həmçinin Avropa Şurasının insan hüquqları üzrə müvəkkilinin bəyanatlarında dişsizlik var, sərtlik yoxdur. Onlar bu məsələdə bilavasitə müharibə cinayətlərini törədən, etdikləri məkirli əməlləri ilə məsuliyyət daşıyan Ermənistanı açıq şəkildə qınamaqdan çəkinirlər. Təəssüf ki, eyni zamanda görünən odur ki, beynəlxalq qurumları, təşkilatları Azərbaycan vətəndaşlarının ermənilər tərəfindən qoyulan minalarla həlak olması narahat etmir. Halbuki onlar digər xırda məsələlər barəsində dünyaya səs salır, car çəkirlər. Lakin burada insan taleyindən söhbət getdiyi bir məqamda səssiz qalmağa üstünlük verir, etinasız münasibət göstərirlər. Bu, beynəlxalq qurumların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı son 30 il ərzində etinasız münasibətinin davamı, eyni zamanda beynəlxalq hüququn, beynəlxalq ədalətin müasir dünyada nə qədər zəif olduğunun, işləmədiyinin göstəricisidir. Məhz bu amilləri nəzərə alaraq, necə ki, torpaqlarımızı öz gücümüzlə geri qaytardıq, BMT-nin müvafiq qətnamələrini özümüz icra etdik , eləcə də torpaqlarımızı minalaradan öz gücümüzlə təmizləyəcəyik. Bunun üçün hər birimiz əlimizdən gələni əsirgəməməliyik. Məsələn, mən millət vəkili, parlamentin üzvü olaraq Milli Məclis çərçivəsində keçirdiyimiz görüşlərdə, təmsil olunduğumuz beynəlxalq qruplarda mütəmadi olaraq bu məsələyə toxunuram. Aidiyyəti qurumlara məktublar yazırıq. Lakin dediyim kimi, hələ də ermənipərəst qüvvələrin beynəlxalq təşkilatlarda, beynəlxalq ictimaiyyət arasında öz fikirləri ilə israrla Azərbaycan əleyhinə və beynəlxalq hüquqa əks olan addımlar atdığının şahidi oluruq.

Təbii ki, Azərbaycana dost olan dövlətlər daima bizi dəstəkləyir. Bu məsələdə də eynilə dəstək olacaqlarından əminəm. Lakin arzu edirik ki, bütün dünya ölkələri erməni vəhşiliklərini görsün və bununla bağlı lazımi addımlar atılsın.

**-Mina probleminin bugünkü gedişlə həllinə cəhd edilərsə, yerli əhalinin Qarabağa köçürülməsinə nail olmaq üçün bizə nə qədər vaxt lazım gələcək?**

**Ermənistanın terror əməlləri müəyyən prosesləri gecikdirə bilər, ancaq dövlətimizin qarşısında duran hədəflərə çatmağımıza heç nə ilə mane ola bilməyəcək. Biz ilk növbədə vətəndaşlarımızın təhlükəsizliyini düşünmək, ikinci mərhələdə ləyaqətli qayıdış və ləyaqətli yaşayışı təmin etməliyik. Bunlar qarşımıza qoyduğumuz çox mühüm hədəflərdir. Bu proseslər mərhələli şəkildə gedəcəyi üçün konkret bir zaman çərçivəsinə salmaq və tarix göstərmək düzgün olmaz. Ancaq əminəm ki, bütün bu minalardan təmizlənmə, Qarabağın sürətlə yenidən qurulmasına, bərpası prosesinə yaxın gələcəkdə nail olacağıq. Torpaqlarımız minalardan təmizlənəcək, Zəngəzur dəhlizi açılıb fəaliyyət göstərəcək, azad olunmuş ərazilərdə bütün kommunikasiya xətləri bərpa olunacaq və bütün bu sadaladıqlarım Azərbaycanın gücünə güc qatacaq.**

**Əsli TELMANQIZI**



Anar İsgəndərov



Kamran Əsədov

# Yay məktəbinin tətbiq edilməsi

## *çox vacib və zəruridir*

**Uzun müddətdir davam edən pandemiyanın yaratdığı fəsadlar, təəssüf ki, təhsil sahəsindən də yan ötüşmədi. Müəyyən müddət ənənəvi və ya distant formada təhsil alan şagirdlərin biliklərin mənimsəməsində ciddi boşluqlar yarandı. Məhz bu boşluqları doldurmaq məqsədilə Təhsil Nazirliyi yeni bir addım atıb. Belə ki, iyunun 16-dan 30-na kimi 2 həftə müddətində bütün ölkə üzrə yay məktəbləri fəaliyyət göstərəcək. Ödənişsiz və könüllü əsaslarla ümumtəhsil müəssisələrində təşkil olunacaq yay məktəblərinin əsas məqsədi şagirdlərin zəruri bilik və bacarıqlarının möhkəmləndirilməsidir. Ancaq bu, pedaqoji heyət tərəfindən birmənalı qarşılanmayıb. Bununla bağlı müxtəlif səbəb gətirirlər.**

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü **Anar İsgəndərov** və təhsil üzrə ekspert **Kamran Əsədov** məsələyə münasibət bildirdilər.

**Anar İsgəndərov** dedi ki, həm 44 günlük müharibənin, həm də pandemiyanın təsir etdiyi sahələrdən biri də bağça, məktəb və ali təhsil müəssisələri oldu: “Biz çətin dövrlərdən keçdik və bu proses hələ də davam edir. Hər bir işə münasibətdə onun faydalı iş əmsalı ölçülür. Pandemiya bizdən faydalı iş əmsalının bəlkə də 50 faizini aldı. Bundan başqa, xalqımız ağır müharibə dövründən keçdi. Bütün bunları deməkdə məqsədim odur ki, bu kimi çətinliklərdən keçən xalq üçün 15 günlük müvəqqəti narahatlığın öhdəsindən gəlmək, düşünürəm ki, o qədər də ağır deyil”.

**Kamran Əsədov** yay məktəbinin mahiyyətindən danışaraq qeyd etdi ki, bu, tədris ili ərzində keçirilənlərin ümumiləşdirilməsi, zəruri bilik və bacarıqların möhkəmləndirilməsi üzərində qurulan bir sistemdir: “İlk növbədə qeyd edim ki, yay məktəbinin tətbiq edilməsi çox vacib və zəruri idi. Çünki pandemiya dövründə tələbələr, şagirdlər kifayət qədər tədris prosesindən kənarda qaldılar. Belə ki, ölkə ərazisində 2020-ci ilin mart ayından etibarən tədrisin təşkilində format dəyişərək ənənəvi təhsildən məsafədən təhsilə keçirildi. Bu da şagirdlər üçün təhsilin əlçatanlığına təsir göstərdi. Məhz buna görə də yay məktəbləri təşkil edilməli idi. Çünki şagirdlər təkcə kompüter, planşet, telefon olmadığına görə təhsildən kənarda qalmayıblar. Eyni zamanda müəyyən fənlər var ki, misal üçün, riyaziyyat, fizika, kimya, bu kimi fənləri məsafədən tədris etmək, demək olar ki, mümkün deyil. Ona görə də hesab edirəm ki, yay məktəblərində şagirdlərin iştirakı vacibdir. Bir sözlə, əsas mahiyyət ondan ibarətdir ki, bir il dörd ay ərzində keçirilməyən və yaxud da zəif keçirilən, eyni zamanda şagirdlər tərəfindən mənimsənilməyən və yaxud da zəif mənimsənilən mövzular həmin ikihəftəlik dərs müddətində hər gün məktəbə getməklə tədris olunacaq. Onu da qeyd edim ki, burada yalnız 1-10-cu sinif şagirdləri iştirak edəcəklər”.

**Ekspert müəllimlərin yay məktəbinə olan mövqeyinə də toxundu: “Əmək Məcəlləsinə görə, müəllimlər iyunun 30-na qədər məktəbdədirlər. Düzdür, jurnalların yazılması, yekun summativlərin qiymətləndirilməsi və sairə ilə bağlı onların kifayət qədər vaxtları gedir. Ancaq nəzərə alsaq ki, yay məktəbinə qoşulmaq könüllü əsaslarla aparılacaq, bu da qruplarda şagird sayının az olaraq təşkil edilməsinə imkan verəcək. Eyni zamanda dərslər həftədə beş gün 4 dərsdən ibarət keçiriləcək. Bu baxımdan da müəllimlərin tədrislə bağlı yekun işlərini həll etmək üçün kifayət qədər vaxtları olacaq.**

Bir qrup müəllim də havanın o tarixlərdə isti keçməsini və həm müəllimlər, həm də şagirdlər üçün tədrisin çətin olacağını səbəb gətirirlər. Ancaq nəzərə alsaq ki, dərslərin keçirilmə vaxtı saat 8-dən maksimum 1-ə qədərdir və həmin saatlarda temperatur o qədər də yüksək olmur, ona görə də bu, problem yaratmır.

**Müəllimlərə bu tarixlərə görə əməkhaqqının ödənilməsi məsələsinə gəlincə isə, müddətli müqavilə ilə işləyənlərin müqaviləsi 15 iyunda başa çatır. Həmin müəllimlərin əməyinə ehtiyac olduğu təqdirdə onlarla hər hansısa müqavilə imzalanacaq və əvəzi ödəniləcək. Ancaq burada daha çox müddətsiz müqavilə ilə işləyənlər prosesə cəlb ediləcək. Onlar iyun ayının sonuna qədər əməkhaqqı alırlar. Ona görə birmənalı şəkildə hesab edirəm ki, bu məsələdə şagirdləri anlayışla qarşılamaq lazımdır”.**

**Aliyə SƏMƏDOVA**

# Turizm strukturlarımız postpandemiya dövrünə hazırdır



Kənan Quluzadə

***Nazirlər Kabineti yanında Operativ Qərargah iyunun 10-dan etibarən Rusiya ilə Türkiyə vətəndaşlarının hava yolu ilə Azərbaycana səyahət şərtlərini açıqlayıb. Məlumata əsasən, bunun üçün yaşı 18-dən yuxarı olan sərnişinlər tam vaksinasiya və ya COVID-19 xəstəliyindən sağalması barədə müvafiq ölkənin verdiyi rəsmi sənəd və uçuşdan əvvəl (72 saat ərzində) COVID-19-a dair PCR testinin neqativ olduğunu təsdiqləyən sənəd təqdim etməlidir. Bu qərar, demək olar ki, ölkəmizə turist axınının sayını artıracaq. Bəs, görəsən, digər xarici ölkələrdə epidemioloji vəziyyətə uyğun olaraq həmin ölkə vətəndaşlarının mərhələli şəkildə Azərbaycana səfəri üçün hansı qaydalar nəzərdə tutulur? Ölkəmizdəki turizm obyektləri karantin qaydalarına uyğun fəaliyyətə hazırdırmı? Qaydalar ölkəmizə turist axınına necə təsir göstərə bilər?***

Suallarımızı Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə və Azərbaycan Turizm Assosiasiyasının sədrinin müşaviri Müzəffər Ağakərimov cavablandırıb.

K.Quluzadə bildirdi ki, turizm sektoru pandemiya şəraitində ən çox zərərçəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə etdik. Pandemiyadan əvvəl rekord göstərici qeydə alınıb, 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Lakin pandemiya dövründə təbii olaraq turist axını azalıb. Artıq ölkəmizdə koronavirus ilə bağlı vəziyyət nəzarətdədir, vaksinasiya sahəsində olduqca uğur qazanılıb və sərhədlər açılır, aviasəfərlər bərpa edilir. Mexanizm isə bəllidir. Sizin də qeyd etdiyiniz kimi, Türkiyə və Rusiya vətəndaşları bu iki sənədi təqdim etməklə ölkəmizə səfər edə bilərlər. Hazırda aktual məsələlərdən biri də bu siyahının genişləndirilməsidir. Vaksinasiya sahəsində yüksək nəticə əldə etmiş digər ölkələrlə də aviasəfərləri bərpa etmək nəzərdə tutulur. Hazırda bizim birinci hədəfimiz turistlərin sayını artırmaq, ikincisi isə turistlərin məmnunluğunu təmin etməkdir. İlk növbədə hansı ölkələrdən turistlərin cəlb ediləcəyi prioritet bazarları müəyyən edilib. Bu gün üçün 18 prioritet bazarı var ki, bu, Asiya, Yaxın Şərq, Avropa regionunu əhatə edən istiqamətlərdir.

**K. Quluzadə dedi ki, turizm istirahət mərkəzləri, otellər və bu sahəyə cavabdeh olan bütün qurumlar postpandemiya dövrünə hazırdırlar, bundan sonrakı fəaliyyətlərini də yeni dövrün tələblərinə uyğun şəkildə quracaqlar. Belə ki, müəssisədə COVID-19-a yoluxma halları olmadıqda belə, gigiyena qaydalarının tətbiqinin genişləndirilməsi tövsiyə edilir. İctimai yerlərin dezinfeksiyasına xüsusi diqqət yetirilməlidir ki, bura əsasən tutacaqlar, lift düymələri, sürahilər və sair aiddir. Təmizlik heyəti müvafiq qaydada təlimatlandırılmalıdır. Hər müəssisənin təmizlənmə və dezinfeksiya planı tərtib olunmalıdır. Hazırda isə turizm obyektləri daxili turistləri qəbul edir. Ötən ilin avqustundan etibarən Nazirlər Kabinetinin qərarına əsasən, gün ərzində 70-ə yaxın monitorinq aparılır. Vəziyyət tamamilə nəzarətdədir, bu sahədə heç bir problem gözlənilmir. Artan rəqabət şəraitində turizm ictimaiyyəti tərəfindən Azərbaycan təhlükəsiz ölkə kimi qəbul edilir. Turistlər və vətəndaşlarımız sanitar-gigiyena qaydalarına riayət etməlidirlər ki, pandemiya ilə bağlı ələ alınmış nəzarətə mənfi təsir etməsin.**

K. Quluzadə onu da qeyd etdi ki, pandemiya dövrü turist sayının artımına mənfi təsir etdi lakin, tezliklə turist sayının artacağına, vəziyyətin əvvəlki illərdən də yaxşı olacağına ümid edirik. Çünki Azərbaycanda buna kömək edən bütün amillər var: təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, əvəzolunmaz təbiəti, yaşıllıqlarla zəngin meşələri, milli mətbəximiz, tarixi abidələr, yay turizmi, qış turizmi və başqa bir çox amilləri saymaq olar. Lakin indi bizim əsas vəzifəmiz məqsədyönlü iş və potensialın artırılması, vətəndaşlarımızın, həmçinin ölkəmizə səfər edən turistlərin, xarici qonaqların sağlamlığının qorunmasıdır.



Müzəffər Ağakərimov

**Müzəffər Ağakərimov isə aviasəfərlərin bərpa edilməsinin çox sevindirici hal olduğunu vurğuladı. Bildirdi ki, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etməklə tezliklə digər ölkələr ilə də mərhələli şəkildə aviasəfərlər bərpa olunacaqdır. Pandemiya dövründə turizmə dəyən ziyan milyardlarla ölçülür. Turizm sektorunu dirçəltmək üçün ilk növbədə daxili turizmi inkişaf etdirmək lazımdır. Aydındır ki, insanlar hələ bir müddət xarici ölkələrə səfər etməkdən ehtiyat edəcəklər. Burada psixoloji və digər amillər rol oynayır. Mövcud vəziyyətdə daxili turizmi daha çox inkişaf etdirmək mümkün olar. Azərbaycanın tükənməz turizm potensialı var və biz onun hələ çox hissəsindən istifadə etməmişik: “İndiki zamanda yenidən turizmin inkişafına təkan verməliyik. Turistləri cəlb etmək işin bir tərəfidirsə eyni zamanda da həmin turistlərə yüksək səviyyədə xidmət göstərməliyik. Bütün qüvvələri birləşdirib məhz aparıcı sahələrdən olan turizm sektorunu əvvəlkindən də daha yaxşı vəziyyətə gətirəcəyik. Azərbaycan turizm sahəsində də dünyada tanınacaq”.**

**Gülöyşə MƏMMƏDLİ**

Beynəlxalq



Pandemiyanın yaratdığı insan iztirablarının miqyası kollektiv uğursuzluqla daha da dərinləşir.

Q.Rayder hökumətlərin səhiyyə sahəsində böhranının aradan qaldırılması, onun sosial və iqtisadi təsirlərinin azaldılması üçün etdikləri səyi və hazırlığı qeyd edib. O bildirib ki, bu konfransın keçirilməsi çox vacibdir. Bütün dünyada insanlar yenidən bərpaya ümid edir və əzmlə

# Beynəlxalq Əmək Konfransının 109-cu sessiyası keçirilir

**2021-ci il iyunun 7-dən 19-dək Beynəlxalq Əmək Təşkilatının (BƏT ) üzv dövlətlərinin hökumət nümayəndələrinin və sosial tərəfdaşlarının iştirakı ilə virtual formatda Beynəlxalq Əmək Konfransının 109-cu sessiyası keçirilir.**

Bu il konfransın gündəliyinə daxil edilən maddələr bunlardır:

**Daimi maddələr**

**1. Rəhbər orqan sədrinin və Baş direktorun məruzələri**

*- BƏT-in 2018-2019-cu illər üzrə proqramının həyata keçirilməsi*

*- Baş direktorun məruzəsi*

Əlavə: 2020 və 2021-ci illər üzrə işğal olunmuş ərəb ərazilərində çalışan insanların vəziyyəti

**2. Proqram, büdcə və digər məsələlər**

*- 2022-2023-cü illər üçün proqram və büdcə layihəsi və digər məsələlər*

**3. Konvensiya və tövsiyələrin tətbiqi ilə bağlı məlumat və hesabatlar**

Konfrans və ya Rəhbər orqan tərəfindən gündəliyə daxil edilmiş maddələr

**4. Bərabərsizlik və əmək dünyası (ümumi müzakirə)**

**5. BƏT-in ədalətli qloballaşma maraqları naminə sosial ədalət haqqında bəyannaməsi ilə bağlı sonrakı fəaliyyəti çərçivəsində sosial müdafiənin (sosial təminat) strateji məqsədinin mütəmadi olaraq müzakirə edilməsi**

**6. Həyatboyu bacarıq və təlim (ümumi müzakirə)**

Tədbirdə BƏT-in Baş direktoru Qay Rayder pandemiya zamanı əmək sahəsində baş verən dəyişikliklər haqqında məruzə edib. O, Beynəlxalq Əmək Konfransının ilk virtual plenar iclasında BƏT-in Yüzillik Bəyannaməsində qeyd olunan insan yönümlü siyasətin pandemiyaya davamlı və inklüziv qlobal reaksiya üçün əsas olduğunu bildirmişdi. Baş direktor pandemiyanın cəmiyyətlərimizdə çoxsaylı və artan bərabərsizliyin nəticələrini aşkar etdiyini və zaman keçdikcə onların həll edilməməsini vurğulayıb.

çalışırlar, çünki bu, səmərəli, davamlı, daha ədalətli və daha yaxşı bir gələcəyə gətirib çıxaracaq.

**İyunun 8-də plenar iclasda çıxış edən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev COVID-19 pandemiyasının dünya ölkələrinin səhiyyə sistemlərinə və iqtisadiyyatına, əmək bazarına, məşğulluq sahələrinə, xüsusilə sosial cəhətdən həssas qruplarına təsirlərini qeyd edib. O, mövcud vəziyyətdə bərpa və davamlı inkişaf üçün daha güclü birliyin vacibliyini diqqətə çatdırıb.**

S.Babayev Azərbaycan Hökumətinin pandemiyanın ilk günlərindən COVID-19-la mübarizə və özəl sektorun dəstəklənməsi, həmçinin makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində lazımi addımları atdığını vurğulayıb.

**Nazir ölkənin dövlət məşğulluq siyasətinin BƏT və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıqda həyata keçirildiyini bildirib. Azərbaycan Hökuməti ilə BƏT arasında əməkdaşlıq prioritetlərini müəyyən edən ikinci Layiqli Əmək üzrə Ölkə Proqramının uğurlu icrasının inkişafı istiqamətində hədəflərimizin reallaşmasına töhfə verdiyini bildirib. Növbəti Proqramın da əmək məsələlərinin həllində mühüm rol oynayacağına əminliyini ifadə edib.**

Tədbirdə Rusiya Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri Mixail Şmakov da çıxış edib. O qeyd edib ki, COVID -19 kontekstində bəzilərinin zənginləşməsi və eyni zamanda əksəriyyətin sürətlə yoxsullaşması prosesi baş verir. Cəmiyyətin bir qütbündə sərvətin toplanması işsizliyin, yoxsulluğun və digər hüquqsuzluğun artmasına gətirib çıxardı.

Plenar iclaslarda sosial tərəfdaşların təmsilçilərindən ibarət nümayəndə heyətləri çıxış ediblər.

**Beynəlxalq Əmək Konfransının 109-cu sessiyasında AHİK sədrinin rəhbərliyi altında nümayəndə heyəti iştirak edir.**

# İnsanları etibarlı iş yerləri və ədalətli əməkhaqqı ilə təmin etmək




**Avropa və İspaniya həmkarlar ittifaqı liderləri Avropa Komissiyasını işçilərin hüquqlarını və pensiya islahatlarını pozmaq üçün İspaniyanın milli yenidənqurma planına dair danışıqları dayandırmağa çağırıblar.**

Avropa Həmkarlar İttifaqları Konfederasiyasının (ETUC) Baş katibi Luka Visentini və "CCOO" adından da danışan "UGT" Baş katibi Pepe Alvarez İspaniya hökumətinin milli plan çərçivəsində mütərəqqi əmək və pensiya islahatları planlarına dair son şərhlərini müzakirə etmək üçün Avropa Komissiyası sədrinin müavini Valdis Dombrovskis ilə onlayn görüşüb.

**İclasda həmkarlar ittifaqı liderləri İspaniyanın bərpa planının sərt iqtisadi şərtlərə məruz qalmayacağına, Komissiyanın sabitliyin bərpası və təmin edilməsi mexanizminin bir hissəsi olmadığına və onun sosial məqsədlərinə zidd olacağına zəmanət almağa çalışıblar.**

L.Visentini Komissiyanın hər hansı bir siyasi müdaxilədən imtina etdiyinə əmin olduğunu və ötən ay Porto Sammitində vətəndaşların sosial hüquqlarının gücləndirilməsi ilə Avropanın həyat və əmək səviyyəsini necə artıracağına dair verdikləri vədlərə sadiq olduğunu söyləyib. O bildirib ki, Komissiyanın İspaniyaya müdaxiləsi onun ümummilli sosial dialoqa dair səlahiyyətindən qat-qat üstündür, onun öz sosial məqsədlərinə ziddir və maliyyə böhranına reaksiyasının iflasından hələ də nəticə çıxarmalı olduğunu göstərir.

**İspaniyada fəaliyyət göstərən əmək qanunvericiliyi sərt iqtisadi tədbirlər çərçivəsində son böhrandan sonra tətbiq edilib. Əməkhaqqının azalmasına və işsizliyin artmasına səbəb olub. Keçmiş islahatların vurduğu ziyanın aradan qaldırılması üçün kollektiv danışıqların möhkəmləndirilməsi insanları etibarlı iş yerləri və ədalətli əməkhaqqı hesabına yoxsulluqdan çıxarmaq, eləcə də rəqəmsal və yaşıl iqtisadiyyata ədalətli keçidin təmin edilməsi üçün son dərəcə vacibdir. Həmçinin pensiya sistemi lazımdır, onun əsas məqsədi-hamı üçün layiqli yaşlanmanı təmin etməkdir.**

"Biz Komissar V.Dombrovskisə aydın şəkildə bildirdik ki, sərt iqtisadi şərtlərə dair heç bir mandat yoxdur. Onu İspaniyada baş verən sosial dialoq prosesinə hörmət etməyə və dəstəkləməyə çağırdıq"- deyə L.Visentini vurğulayıb.

**L.Visentini COVID böhranının işçilərə təsirinin azaldılması üçün fövqəladə tədbirlərin, məşğulluq tam bərpa olunana qədər, bütün Avropada saxlanılmalı olduğunu vurğulayıb.**

Pepe Alvarez İspaniyada 4 milyondan çox işçinin kollektiv müqavilə ilə qorunmadığını qeyd edib: "Əgər biz İspaniyada daha ədalətli maaş almaq istəyiriksə, fəhlələrə kollektiv danışıqlar aparmaq hüququ və imkanı verilməlidir. Avropa Komissiyası İspaniya hökumətini qeyri-standart məşğulluğu azaltmağa və əmək şəraiti çox pis olan gənc işçilərin əmək həyatlarının başlamasının qarşısını almağa kömək etməlidir.

**O, Avropa Komissiyasının sosial dialoqa sadiq qaldığına dair V.Dombrovskisin bəyanatını alqışlayıb.**

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı

# İttifaq üzvlərinə qayğı əsas vəzifəmizdir



**Pandemiya şəraitinin çətinliklərinə baxmayaraq, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) İsmayıllı Rayon Komitəsi hər zaman ittifaq üzvlərinin yanında olmuş, onlara maddi və mənəvi dəstək göstərmişdir. Pandemiya ilə əlaqədar sərt karantin rejimi zamanı rayon komitəsinin könüllüləri 265 nəfər aztəminatlı və yaşlı təhsil işçisinin evinə gedərək onları ərzaq və tibbi ləvazimatlarla təmin etmişdir. COVID-19 xəstəliyinə tutulmuş 180 nəfərdən çox təhsil işçisinin kart hesabına maddi vəsait köçürülmüşdür.**

Vətən müharibəsi dövründə könüllü olaraq döyüşə getmiş 20 nəfər təhsil işçisinin ailələri ilə müntəzəm olaraq əlaqə saxlanılmış, onlara ərzaq və digər yardımlar göstərilmişdir. Tarixi Qələbəmizin əldə olunmasında iştirak etmiş həmin təhsil işçiləri ilə, pandemiya qaydalarına əməl edilməklə, görüş təşkil edilmiş, onları diplom, Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırmışdır. 26 nəfər qazi, 23-dən çox şəhid ailəsinə hər cür maddi və mənəvi dəstək göstərilmişdir. Şəhid Famil Əhmədzadənin həyat yoldaşına TİAHİ Respublika Komitəsi tərəfindən hər ay 100 manat maddi köməklik göstərilməsi təmin olunmuşdur.

**Bu dəstəyə və köməkliyə görə TİAHİ Respublika Komitəsinə, onun sədri, millət vəkili Səttar Möhbalıyevə rayon təhsil işçiləri adından təşəkkürümüzü bildiririk.**

Rayon komitəsi, pandemiya qaydalarına əməl etməklə, keçən il TİAHİ Respublika Komitəsinin keçirdiyi müxtəlif müsabiqələrdə qalib gəlmiş həmkarlar ittifaqı fəallarını da mükafatlandırmışdır.

AHİK-in keçirdiyi "Əməyin mühafizəsi sahəsində ilin ən yaxşı müəssisəsi" Respublika baxış-müsabiqəsində İsmayıllı şəhər 1 nömrəli tam orta məktəbin kollektivi Konfederasiyanın Fəxri diplomuna layiq görülmüşdür.

**Həmçinin "İlin peşəkar gənci" Respublika müsabiqəsində qalib olan Vəng kənd tam orta məktəbin kimya müəllimi Gülnarə Qurbanova TİAHİ Respublika Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür.**

Həmin qaliblər və 40 nəfərdən çox qabaqcıl təhsil işçisi, həmkarlar ittifaqı fəalları TİAHİ Respublika Komitəsinin yaranmasının 100 illiyinə həsr olunmuş "Yubiley döş nişanı" ilə mükafatlandırılmışlar.

Rayon komitəsi Ramazan bayramı ərəfəsində şəhid ailələri və yaşlı təhsil işçilərinin ailələri ilə də görüşmüş və onlara bayram sovqatları təqdim olunmuşdur.

**İttifaq üzvlərinə mütəmadi olaraq qayğı göstərmək rayon komitəsinin əsas vəzifəsidir.**

**Hafiz KƏRİMOV,**
**TİAHİ İsmayıllı Rayon Komitəsinin sədri**

# Qarabağ qaziləri istirahət mərkəzində



**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) Qaradağ Rayon Komitəsi, təhsil müəssisələrində çalışan Qarabağ qazilərinin Lənkəran rayon "Palıdlı-Sahil" İstirahət Mərkəzinə gəzintisini həyata keçirib. Daim qazilərə dövlət dəstəyi göstərildiyi kimi, rayon komitəsi də bu işdə olduqca fəaldır. Lənkəran rayon "Palıdlı-Sahil" İstirahət Mərkəzinin rəhbərliyi və işçi heyəti qazilərimizə yüksək diqqət və qayğı göstərdilər. Qazilərimizin asudə vaxtlarının dəyərləndirilməsi məqsədilə Xan Bulan gölünə gəzinti təşkil edildi. Daha sonra mərkəzin rəhbərliyi canlı musiqi gecəsi təşkil etdi. Gecədə Azərbaycanın ərazi bütövlüyü uğrunda, Vətən müharibəsində şəhid olmuş igidlərimizin ruhu birdəqiqəlik sükutla yad edildi. Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalından danışdı, qazilər ürək sözlərini söylədilər, vətənpərvər şeirlər səsləndirildi.**

Sonda TİAHİ Qaradağ Rayon Komitəsinin sədri Zümrüd xanım Rzayeva qazilərə göstərilən peşəkar xidmətə görə "Palıdlı-Sahil" İstirahət Mərkəzinin rəhbəri Şakir Rəcəbova Rayon Komitəsinin Fəxri Fərmanını təqdim etdi.

# Zəngin ənənə davam edir

**"Tarixi uzun keçmişə gedən, çətin sınaqlardan çıxan təhsil işçiləri həmkarlar ittifaqının ənənələri, mübarizliyi indiki nəsil tərəfindən də ləyaqətlə yaşadılır.**

Biz bu ənənəyə sədaqətin ən parlaq nümunəsini COVID-19 pandemiyasının dünyaya meydan oxuduğu zamanda, Vətən müharibəsi günlərində bir daha gördük. Təhsil işçiləri azad həmkarlar ittifaqı pandemiyanın və müharibənin ilk günlərindən xalqın yanında oldu. Aztəminatlı işçilərə, hərbçilərimizə, qazilərimizə, onların ailə üzvlərinə mənəvi, maddi dəstək göstərdi.

Bu günlərdə təşkilatımızın - Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının 100 yaşı tamam oldu. Bu münasibətlə təsis olunmuş yubiley medalına layiq görülənlər sırasında, sevindirici haldır ki, bizim şəhər komitəsinin, onun strukturlarının da əməkdaşları var".



**Bu sözləri TİAHİ Şirvan Şəhər Komitəsinin sədri Niyazi Nəcəfov yubiley medalının təqdim edilməsi mərasimində söylədi. Niyazi müəllim yubiley medalına layiq görülənləri təbrik etdi, hər birinə daha böyük uğurlar arzuladı.**



# Təltif olunublar

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Həmkarlar İttifaqının 20 nəfər üzvü, universitetin Tələbə Həmkarlar İttifaqının isə 19 nəfər üzvü həmkarlar ittifaqı hərəkatında xidmətlərinə görə "Yubiley döş nişanı" ilə təltif edilib.**

ülfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 10 İYUN 2021-Cİ İL / № 21 (1239)
8



# Hərbçi kursantlar "Mübariz" uğrunda yarışdılar

**Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən hərbi idman yarışlarının əsas məqsədi gənc kursantlarda vətənpərvərlik ruhunu yüksəltmək, onlarda çəldlik, dözümlülük kimi keyfiyyətləri inkişaf etdirmək və qalib komandaya təqdim ediləcək Mübariz İbrahimov adına kubokun əhəmiyyətinin aşılanmasıdır.**

Liseydə bu il keçirilən yarış xüsusi önəm daşıyırdı. Komandalar açıq havada sıraya düzülərək həyəcanla yarışların başlanmasını gözləyirdi. Əvvəlcə liseyin fiziki hazırlıq fənn bölməsinin rəisi Rəşad Kazımov çıxış edərək gənclərə göstərilən qayğıya görə, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) və onun sədri, millət vəkili Səttar Möhbalıyevə təşəkkürünü bildirdi. Qeyd etdi ki, bu gün müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət yüksək döyüş qabiliyyətinə, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik ordusu var.

**Bu yazının müəllifi AHİK-in sədri, millət vəkili Səttar Möhbalıyevin adından bütün şəxsi heyəti salamlayaraq, onları 44 günlük müharibədə əldə edilən Qələbə münasibətilə bir daha təbrik etdi. Bildirdi ki, Vətən, torpaq uğrunda şəhid olan oğullarımızın xatirəsi həmişə xalqımız tərəfindən hörmətlə anılır. Sevinirik ki, bu gün Milli Ordumuzun sıralarında sizin kimi mərd, vətənpərvər, cəsur gənclərimiz var.**

Sonra yarışlara start verilib. İki gün davam edən yarışların nəticəsinə görə, qaliblər müəyyən edilib.

**Estafet qaçışı** (4x400) üzrə yarışlarda 6-cı bölüyün komandası birinci yerə çıxıb. Komandanın üzvləri 261-ci taqımın kursantı Ərkan Məmmədov, 262-ci taqımın kursantları Tural Rzayev və Gündüz İsmayılov, 263-cü taqımın kursantı Nihat Verdiyev mükafata layiq görüldülər.

**Qumbaraatma** üzrə yarışlarda 114-cü taqımın kursantı Anar Əhmədov birinci, 122-ci taqımın kursantı İlyas Mehdiyev isə ikinci yeri tutdular.

**Turnikdə dartınma üzrə keçirilən yarışda 265-ci və 114-cü taqımın kursantları Əkbər İmanov və Səid Kərimov birinci və ikinci yerləri bölüşdülər.**

**Kəndirdartma** üzrə komandalar arasında keçirilən yarışlar 5-ci bölüyün qələbəsi ilə başa çatdı.

Yarışların ümumi nəticəsinə görə, 6-cı bölüyün kursantları qalib adını qazanaraq Mübariz İbrahimov adına kubokun sahibi oldular.

Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında və asudə vaxtlarının səmərəli təşkilində xüsusi fəaliyyətini nəzərə alaraq Hərbi Liseyin rəisi, general-mayor **Bəkir Orucov**, lisey rəisinin tədris üzrə müavini, şöbə rəisi, polkovnik **Saday Balayev** və İdeoloji iş, mənəvi-psixoloji təminat üzrə müavini, şöbə rəisi, polkovnik **Müslüm Nəsirov**, yarışların keçirilməsində ən yaxşı hakim-fiziki hazırlıq müəllimi **Camal Babayev** AHİK-in Fəxri diplomları ilə təltif olundular.

**AHİK-in diplomu və qiymətli hədiyyələri 2020-2021-ci tədris ilinin yekunlarına həsr olunmuş təntənəli toplantıda qaliblərə təqdim ediləcəkdir.**

**Xoşqədəm BAĞIROVA,**
**AHİK-in mütəxəssisi**









**"Səyahət" (Nabran) İstirahət Mərkəzi dəvət edir**

**"Səyahət" İstirahət Mərkəzi "Dostluq" Turist Bazasının yaxınlığında yerləşir. Pandemiya zamanı karantin qaydalarına uyğun olaraq turist qəbulu həyata keçirilir. Sahilə və meşəyə çıxışları var.**
*Turistlərə yüksəkixtisaslı peşəkar aşpazlar və ofisiantlar xidmət göstərir.*
***Gündə üç dəfə yemək verilir.***
*Səhər naharının menyusuna təbii bal və qaymaq da daxildir. Həftədə iki dəfə kabab verilir.*
**Otaqlarda kondisioner, televizor, soyuducular qoyulub. İsti və soyuq su daimidir.Turistlər müxtəlif növ əyləncələrlə məşğul olmaq imkanına malikdirlər.**
*İstirahət mərkəzi may ayının 25- dən turistləri qəbul edir. Bir nəfər üçün bir günün qiyməti, otaqlardan asılı olaraq, 30-35 AZN-dir. Ödənişlər nağd və köçürmə yolu ilə həyata keçirilir.*
*İstirahət mərkəzi Wi-fi ilə təmin olunub.*
**Əlaqə telefonları: (050/055/070) 334-66-96**





*İdman*

# "Avro-2020" başlayır

**Bakı Olimpiya Stadionunda "Avro-2020"nin "A" qrupunun Uels-İsveçrə (12 iyun), Türkiyə-Uels (16 iyun) və Türkiyə-İsveçrə (20 iyun) oyunları, həmçinin dörddəbir final mərhələsinin bir matçı (3 iyul) təşkil olunacaq.**

Qeyd edək ki, Avropa çempionatının iyunun 11-dən iyulun




11-dək Bakı ilə yanaşı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Kopenhagen, Amsterdam, Sevilya, Qlazqo və Budapeştdə keçirilməsi planlaşdırılır.

Avropa çempionatının Bakı şəhərində keçiriləcək 4 oyununda məhdud sayda azarkeşin iştirakına icazə verilib. Bu, Nazirlər Kabinetinin "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Qərarında əksini tapıb.

**Futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək oyunları ilə bağlı azarkeşlər üçün təlimatlar da hazırlanıb.**



# "Pəhləvan" İdman Klubunun yetirməsi ikinci olub

**Bolqarıstanın paytaxtı Sofiyada 15 yaşa qədər idmançılar arasında yunan-Roma güləşi üzrə Avropa çempionatı keçirilib.**

Qitə birinciliyində iştirak edən millimizin heyətində Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinə daxil olan "Pəhləvan" İdman Klubunun iki yetirməsi də yer alıb.

Yarışlara uğurla başlayan Turan Daşdəmirov (38 kq.) yalnız finalda məğlub olub və Avropa çempionatının gümüş medalını qazanıb.

**Klubun digər yetirməsi Emin Cavadlı (41 kq.) isə yarışı beşinci pillədə başa vurub.**

# Hüquq məsləhətxanası

**İşçinin ixtisası yoxdursa, ona minimum əməkhaqqından az əməkhaqqı verilə bilərmi?**

**Səbinə ƏLƏSGƏROVA, Beyləqan rayonu.**

- Əmək Məcəlləsinin 155-ci maddəsinə əsasən, işçinin heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

Minimum əməkhaqqı - iqtisadi, sosial şərait nəzərə alınmaqla, qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir.

İşçiyə minimum əməkhaqqından az əməkhaqqının verilməsi inzibati xəta sayılır və buna görə, İnzibati Xətalar Məcəlləsinin 192.3-cü maddəsində cərimə cəzası nəzərdə tutulmuşdur. Burada qeyd edilir ki, işçiyə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş minimum əməkhaqqından aşağı məbləğdə əməkhaqqı verilməsinə görə- vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

Qeyd edək ki, Əmək Məcəlləsinin 94-cü maddəsində natamam iş vaxtı nəzərdə tutulmuşdur.

Natamam iş vaxtında alınan əməkhaqqı minimum əməkhaqqından az ola bilər.

Bu, əmək qanunvericiliyinin pozulması demək deyildir.

**Mən 4 aydır ki, işləyirəm. Uşağımın xəstəliyi ilə bağlı 3 aylıq ödənişsiz məzuniyyət götürmək istəyirəm. 6 ay stajım olmadan bu məzuniyyət mənə verilə bilərmi?**

**Salehə QADİMOVA, Şirvan şəhəri.**

- Ödənişsiz məzuniyyətlər işçinin məzuniyyət hüququnun bir növüdür. Qeyd etdiyiniz 6 ay staj məsələsi Əmək Məcəlləsinin 131-ci maddəsində göstərilib ki, bu da əmək məzuniyyətinin verilməsi qaydasına aiddir. Belə ki, işçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən 6 ay işlədikdən sonra əmələ gəlir.

Lakin qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı, ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcı, elmi işlə məşğul olmaq üçün, habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda işçinin ödənişsiz məzuniyyətdən istifadə etmək hüququ var.

Əmək Məcəlləsinin 129-cu maddəsinə əsasən, ödənişsiz məzuniyyətlər Məcəllədə nəzərdə tutulmuş hallarda işçilərin xahişi və ya tərəflərin qarşılıqlı razılığı ilə verilir.

Sizin qeyd etdiyiniz hal tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilən ödənişsiz məzuniyyətdir.

Belə ki, işəgötürənlə işçinin qarşılıqlı razılığına əsasən, həmçinin kollektiv müqavilələrdə nəzərdə tutulan hallarda, o cümlədən əmək müqaviləsi ilə müəyyən edilən şərtlərlə işçilərə müddəti 6 aydan çox olmayaraq tərəflərin mülahizəsinə əsasən müəyyən edilən ödənişsiz məzuniyyət verilə bilər.

Göründüyü kimi, yalnız əmək məzuniyyəti verilməsi zamanı əmək müqaviləsi bağlandığı tarixdən etibarən 6 ay staj tələb olunur.

Məzuniyyətin qalan növlərinin verilməsi zamanı bu staj tələb olunmur. Odur ki, stajınızın 4 ay olmasına baxmayaraq, işəgötürənin razılığı ilə 3 ay ödənişsiz məzuniyyət götürə bilərsiniz.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri G.Şaroyev adına 35 saylı Musiqi Məktəbinin direktoru
**YUSİF VƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri Hİ Ağstafa Rayon Komitəsinin sədri Zahid Sultanov sahə Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanova anası
**ZENFİRA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tovuz Rayon Komitəsinin sədri Asif Qasımov sahə Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanova anası
**ZENFİRA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəmkir Rayon Komitəsinin sədri Fərhad Cəfərov sahə Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanova anası
**ZENFİRA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1050
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
www.ulfet-az.com
Sərbəst qiymət